7 iyul 2021 №50 (1827)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## 44 günlük müharibədə Ermənistan ordusunun Azərbaycana vurduğu zərərlə bağlı əlavə tədbirlər

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər görüləcək. Prezident İlham Əliyev 6 iyul 2021-ci il tarixində bununla bağlı sərəncam imzalayıb.

Sərəncama əsasən, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 30 milyon manat vəsait ayrılıb.

Prezidentin iyulun 6-da imzaladığı digər sərəncamla 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə və dövlətə məxsus nəqliyyat vasitələrinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə 5,4 milyon manat vəsait ayrılıb.

Bundan əlavə, dövlət başçısının daha iki sərəncamı ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardım ödənilməsi məqsədilə Maliyyə Nazirliyinə 5,2 milyon manat, kənd təsərrüfatına (kənd təsərrüfatı məhsulları, texnika, əkin sahələri, mal-qara və s.) dəymiş ziyanın aradan qaldırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyinə 1,4 milyon manat vəsait ayrılıb.

## Mədəniyyət dövlətlərimizi və xalqlarımızı daha da yaxınlaşdırır

### Nazir Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda səfərdədir

İyulun 6-da Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətinin Gürcüstana səfəri başlayıb. Nümayəndə heyətinə nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri daxildir.



Nümayəndə heyəti Tbilisinin mərkəzindəki Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edib. Büstün önünə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından əklil qoyulub. Nazir Anar Kərimov, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın mədəniyyət və idman nazirinin birinci müavini Kaxa Sixarulidze və digər rəsmilər ümummilli liderin xatirəsini ehtiramla yad ediblər.

Sonra nümayəndə heyəti Kür çayının sahilindəki Heydər Əliyev memorialını ziyarət edib. Ümummilli liderin xatirə lövhəsinin qarşısına gül dəstəsi qoyulub.

Nazir Anar Kərimov və Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Gürcüstanın Qəhrəmanlar meydanında da olublar. Gürcüstan qəhrəmanlarının xatirəsi ehtiramla anılıb, abidə önünə əklil qoyulub.

***

Mədəniyyət naziri jurnalistlərə açıqlamasında Gürcüstana səfərlə bağlı geniş proqram tərtib edildiyini diqqətə çatdırıb. Bildirib ki, keçiriləcək görüşlərdə bu ölkədə azərbaycanlılara məxsus mədəniyyət ocaqları ilə bağlı məsələ də diqqət mərkəzində olacaq, bu tarixi-mədəni irsin Gürcüstan hökuməti tərəfindən qorunması ilə bağlı müzakirələr aparılacaq.

"Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının, Cəlil Məmmədquluzadənin Tbilisidəki ev-muzeyinin vəziyyəti ilə də tanışlıq olacaq. Azərbaycanın tarixi və mədəniyyətinə aid abidələrin qorunması məsələsi Gürcüstan tərəfi ilə gündəmdə saxlanılacaq", – deyə Anar Kərimov əlavə edib.

Nazir qonşu ölkəyə səfəri çərçivəsində muzeylər arasında, eləcə də kino, mədəni irsin qorunması sahəsində əməkdaşlıq məsələlərinin də nəzərdən keçiriləcəyini bildirib. Qeyd edib ki, səfər çərçivəsində Gürcüstanda azərbaycanlıların yığcam yaşadıqları bölgələrə də baş çəkəcək, bir sıra tədbirlərdə iştirak edəcək.

***

Mədəniyyət naziri Anar Kərimov iyulun 6-da Gürcüstanın mədəniyyət, idman və gənclər naziri xanım Tea Sulukiani ilə görüşüb. Görüşdə iki ölkə arasında mədəni əlaqələrin inkişaf perspektivləri diqqət mərkəzində olub.

Nazir Tea Sulukiani Azərbaycan nümayəndə heyətini Gürcüstanda görməkdən məmnun qaldığını vurğulayıb, bu cür səfərlərin dost və qardaş ölkələrimiz arasında əlaqələrin inkişafına xidmət etdiyini bildirib. O, Gürcüstanın Azərbaycan ilə əlaqələrin bütün sahələrdə inkişafında maraqlı olduğunu diqqətə çatdırıb.

Anar Kərimov qeyd edib ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq mədəniyyət sahəsində də əlaqələrin inkişafına geniş imkanlar yaradır.

davamı səh. 2-də

## Şuşada Üzeyir Hacıbəylinin heykəli ucaldılacaq



Heydər Əliyev Fondu tərəfindən Şuşada dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəli ucaldılacaq.

Fonddan verilən məlumata görə, abidə Şuşa şəhərinin işğalı zamanı ermənilər tərəfindən dağıdılan heykəlin yerində qoyulacaq.

Qeyd edək ki, hazırda Bakıda emalatxanada heykəlin hazırlanması prosesi gedir. Heydər Əliyev Fondu heykəlin hazırlanması ilə bağlı video paylaşıb.

## "Dünya məhəbbət üzərində qurulub"

### Alim Qasımovun ansamblı Moskvada Çexov festivalında çıxış edib

Xəbər verdiyimiz kimi, Moskvada keçirilən A.P.Çexov adına XV Beynəlxalq Teatr Festivalında ilk dəfə Azərbaycan muğamı səslənib. Festivalın təşkilatçıları tamaşaçılarını Azərbaycan muğam sənəti ilə tanış etmək üçün Xalq artisti Alim Qasımovu ansamblı ilə birgə qastrol səfərinə dəvət etmişdi.

Alim Qasımovun ansamblı 3-4 iyul tarixlərində Moskva Musiqi Evinin səhnəsində "Dünya məhəbbət üzərində qurulub" adlı musiqili-poetik kompozisiyanı təqdim edib.

Konsertdə dünyaca məşhur sənətçi və qızı – Əməkdar artist Fərqanə Qasımova birlikdə ifa etdikləri muğamlarla tamaşaçıların könlünü oxşayıblar.

"Muğam XVII əsrin ortodoksal poetik mətnləri üzərində yazılmış, ilahi sevgini tərif edən Azərbaycanın ənənəvi ecazkar musiqisidir", – deyə festivalın saytında bildirilir.



Məlumatda qeyd olunur ki, muğam 2008-ci ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu gün dünyada ən məşhur muğam ifaçısı Alim Qasımov hesab olunur. Onun ifa tərzi unikaldır, o, muğamın çoxəsrlik, həmçinin caz və müasir kompozisiya kimi müxtəlif janrların mürəkkəb və yenilikçi qaydalarına söykənən, dərin biliklərə malik bir ifaçıdır.

1992-ci ildə əsası qoyulan A.P.Çexov adına Beynəlxalq Teatr Festivalı Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin və Moskva Şəhər Mədəniyyət Departamentinin təşkilatçılığı ilə keçirilir. İki ildən bir keçirilən festivalın proqramı bir neçə ay davam edir və bu müddətdə teatr tamaşaları ilə yanaşı müxtəlif ölkələrdən fərqli incəsənət nümunələri də nümayiş olunur. 15 may tarixindən 20 noyabradək davam edəcək budəfəki proqramda yapon xoreoqrafiya sənəti, ispan flamenko rəqs sənəti kimi nümunələr də var.

Alim Qasımovun ansamblına xanəndə (vokal) ifaçılar olaraq sənətkarın özü və qızı, instrumental ifaçılar Rauf İslamov (kamança), Zəki Vəliyev (tar), Rafael Əsgərov (balaban) və Cavidan Nəbiyev (nağara) daxildir.



## Vindzor atçılıq şousunda "Xarıbülbül" kompozisiyası

Böyük Britaniyanın paytaxtı Londonda keçirilən ənənəvi "Vindzor Kral Atçılıq Şousu"nda ("Royal Windsor Horse Show") Azərbaycan heyəti yenə möhtəşəm çıxışı ilə yadda qalıb.

Kraliça II Elizabetin və kral ailəsinin digər üzvlərinin tamaşa etdikləri tədbirlərdə "Xarıbülbül" adlı xüsusi şou-kompozisiya təqdim olunub.

səh. 8

## "Qarabağla bağlı reallıqları sərgilər vasitəsilə dünyaya çatdıracağam"

Fransanın müxtəlif şəhərlərində Azərbaycan əsilli məşhur fotoqraf Rza Diqqətinin (Reza Deqati) silsilə sərgiləri təşkil olunub.

Şatovilən şəhərində tanınmış incəsənət kuratoru Pyer Boncovanninin təşkilatçılığı ilə keçirilən "Dünyanın mənşəyi" adlı sərgi çərçivəsində Rza Diqqətinin Azərbaycanda çəkdiyi fotolar nümayiş olunur. Sərginin ən iri zalı onun böyük formatda fotolarına ayrılıb.

Qobustan qayaüstü rəsmlərini əks etdirən fotolar ziyarətçilərdə böyük maraq doğurub və bu fotolar vasitəsilə və sərginin adına uyğun olaraq, ölkəmizin qədim yaşayış məskənlərindən olduğu diqqətə çatdırılıb.




"Sülh fotojurnalisti" kimi təqdim edilən Rza Diqqətinin münaqişə olan müxtəlif ölkələrdən, xüsusilə də Qarabağ müharibəsindən, Azərbaycanın erməni silahlı qüvvələri tərəfindən viran qoyulmuş şəhərlərindən çəkdiyi fotolar emosiyalarla qarşılanıb.

Bu fotolar arxa planda – çəkildiyi məqam, yer və onun əks etdirdiyi səhnəni, bəzən faciəvi bir hadisəni xatırladır. Fotoların arxasında gizli qalan faciəvi tarixçələr yazılı şəkildə hər bir fotonun aşağısında təqdim olunur. Seçilmiş xüsusi ifadələrlə yazılan mətn də ziyarətçilər tərəfindən xüsusi maraqla oxunur.

Nümayiş olunan 100-ə qədər fotonun hər biri qardaşlığa, sülhə, barışığa və mehriban birgə yaşayışa çağırışı ifadə edir. Rza Diqqəti fotoların dili ilə yaşadığı səhnələri ifadə edir, bu gün bəşəriyyət üçün zərurətləri insanlara çatdırır, müharibələrin törətdiyi acıları fotolardakı insanların üz ifadələri ilə göstərir.

davamı səh. 8-də

Sevənlər göz yaşlarına inanarlar...



səh. 7

"Əsərlərim qəlbimin çağırışıdır"

Xalq rəssamı, heykəltəraş Xanlar Əhmədovla müsahibə

səh. 5



Haqverdiyevin əsəri İstanbulda səhnələşdirilib

səh. 8

№50 (1827)
7 iyul 2021
www.medeniyyet.az

# Mədəniyyət dövlətlərimizi və xalqlarımızı daha da yaxınlaşdırır

əvvəli səh. 1-də

"Azərbaycan Gürcüstan ilə müxtəlif istiqamətlərdə, o cümlədən mədəni və humanitar sahələrdə əlaqələrin inkişafına böyük önəm verir. Ümid edirik ki, bu cür səfərlər zamanı müzakirə olunan məsələlər bir sıra problemlərin həlli ilə yanaşı əməkdaşlığımızı daha da genişləndirəcək", – deyə nazir bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmilər iştirak ediblər.

Sonda nazirlər mətbuat üçün brifinq keçirib, jurnalistləri maraqlandıran sualları cavablandırıblar.



### "Sınıq körpü"nün bərpası hər iki tərəf üçün əhəmiyyət kəsb edir

Gürcüstanın mədəniyyət, idman və gənclər naziri ilə görüşdə iki ölkə arasında "Sınıq körpü" sərhəd-keçid məntəqəsinin yenidən qurulması məsələsinə də toxunulub.

Bu barədə jurnalistlərə açıqlamasında nazir Tea Sulukiani bildirib. O deyib ki, "Sınıq körpü" və "Qırmızı körpü" adlanan tikili tarixi-mədəni abidədir. Azərbaycanın və Gürcüstanın müvafiq dövlət və hökumət strukturları arasında bu abidənin yenidən qurulması barədə razılıq əldə olunub.




"Hazırda hər iki ölkənin mütəxəssisləri bununla əlaqədar birgə işləyirlər. Biz bu abidəni "Dostluq körpüsü" adlandıra bilərik. Bu istiqamətdə də müzakirələr gedir. Bu körpünün bərpası hər iki tərəf üçün əhəmiyyət kəsb edir. Düşünürəm ki, bu körpünün bərpası ortaq mədəni abidələrimizin mühafizəsi və əlaqələrimizin inkişafı üçün yeni imkanlar yaradacaq", – deyə Tea Sulukiani vurğulayıb.

Qeyd edək ki, "Sınıq körpü"də ("Qırmızı körpü") təmir-bərpa işləri hələ 2018-ci ilin sonlarında başlanmışdı. Abidənin bərpa və konservasiya layihəsi "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutu tərəfindən hazırlanıb. Layihə körpü tağlarının bərpası, körpünün istinad divarlarının möhkəmləndirilməsi, burada olan karvansaraların bərpası və digər işləri nəzərdə tutur.

Qeyd edək ki, "Sınıq körpü" XII əsrdə Azərbaycan memarları tərəfindən inşa olunub. Tikilinin uzunluğu 175 metrdir və 4 aşırımdan ibarətdir. Körpünün sağ və sol sahillərində karvansara kimi istifadə olunan geniş yerlər tikilib.

***

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov Gürcüstana səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, xarici işlər naziri David Zalkaliani ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın inkişafı və daha da möhkəmləndirilməsi diqqət mərkəzində olub. Mədəni əlaqələrin inkişafının bölgədə davamlı sülhə və təhlükəsizliyə də töhfə verdiyi vurğulanıb.

David Zalkaliani deyib ki, Gürcüstan ilə Azərbaycan bölgədə çox səmərəli əməkdaşlıq edirlər. Mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsi də iki ölkə üçün böyük əhəmiyyət kəsb edir.

Anar Kərimov qeyd edib ki, Azərbaycan dövləti qonşu və dost Gürcüstan ilə əlaqələrin inkişafına xüsusi önəm verir: "Bizim beynəlxalq təşkilatlar çərçivəsində siyasi və iqtisadi, eləcə də mədəni və humanitar sahələrdə əməkdaşlığımız xüsusilə əhəmiyyət kəsb edir".

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev də iştirak edib.

### "UNESCO çərçivəsində əlaqələrimizi gücləndirəcəyik"

"Azərbaycan-Gürcüstan tarixi əlaqələri əməkdaşlığın digər sahələrinə də sirayət edir. Mədəniyyət bizim dövlət və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Bu sahədə əməkdaşlığın gücləndirilməsi qərara alınıb".

Mədəniyyət naziri Anar Kərimov bu sözləri Gürcüstan Baş nazirinin müavini, xarici işlər naziri David Zalkaliani ilə görüşdən sonra jurnalistlər qarşısında deyib.

Nazir qeyd edib ki, görüşdə iki ölkə arasında tarixən mövcud olan dost və mehriban qonşuluq münasibətləri nəzərdən keçirilib.

A.Kərimov Gürcüstanla beynəlxalq səviyyədə əməkdaşlıq məsələsinin də müzakirə olunduğunu bildirib: "Biz UNESCO çərçivəsində əlaqələrimizi bundan sonra daha da gücləndirəcəyik. Görüşdə Azərbaycanın təşəbbüskarı olduğu "Mədəniyyət naminə sülh" qlobal kampaniya layihəsi barədə də məlumat verildi. Bu təşəbbüsün regionda sülh, barışıq və qarşılıqlı anlaşmanı təşviq edən layihə olduğu diqqətə çatdırıldı".

Nazir Azərbaycanın Gürcüstanla mədəni əlaqələri inkişaf etdirəcəyini və bunun hər iki xalqın daha da yaxınlaşmasına xidmət edəcəyini vurğulayıb.

Gürcüstan ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Ölkələrimiz birlikdə bir sıra önəmli iqtisadi layihələr həyata keçirib. Mədəniyyət sahəsi də daxil olmaqla, bir çox sahələrdə sıx əməkdaşlıq edirik.

Bunu isə David Zalkaliani deyib. O, qeyd edib ki, Azərbaycanın mədəniyyət nazirinin Gürcüstana səfəri qarşılıqlı əlaqələrin yüksək səviyyədə olduğunu göstərir.

***





Səfər çərçivəsində nazir Anar Kərimov Tbilisi şəhərinin meri Kaxa Kaladze ilə də görüşüb.

Görüşdə Azərbaycanın və Gürcüstanın paytaxt şəhərləri və bölgələri arasında əməkdaşlıq əlaqələri, Gürcüstanda yaşayan azərbaycanlıların bu ölkənin ictimai-siyasi, mədəni həyatındakı rolu və digər məsələlər diqqət mərkəzində olub.

Kaxa Kaladze Azərbaycan mədəniyyət nazirinin rəhbərliyi ilə nümayəndə heyətinin Gürcüstana səfərinin əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Nazir Anar Kərimov ölkələrimiz arasındakı əlaqələrin inkişafından danışıb, paytaxt şəhərlər və bölgələr arasında əməkdaşlığın genişlənməsinin xalqlarımızın rifahının yüksəlməsinə və ümumi sosial inkişafa xidmət edəcəyini bildirib.



Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov də iştirak ediblər.

Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətinin Gürcüstana səfəri iyulun 9-dək davam edəcək.

# Azərbaycan BMT QAK missiyasını qəbul etməyə hazırdır

"Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (QAK) arasında aparılmış müzakirələr nəticəsində bu qurumun ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə edilib".




Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

O qeyd edib ki, Azərbaycan humanitar missiyaların həyata keçirilməsi ilə bağlı beynəlxalq hüquq prinsiplərini, xüsusilə də dövlət suverenliyi prinsipini rəhbər tutaraq beynəlxalq missiyaları öz ərazisində qəbul etməyə hazırdır: "Bu xüsusda azad olunmuş ərazilərə BMT QAK missiyasının həyata keçirilməsi ilə bağlı təşkilatdan konkret məlumatın təqdim edilməsini gözləyirik. Bir daha vurğulamaq istərdik ki, Azərbaycan beynəlxalq hüquq prinsipləri əsasında BMT QAK missiyasını qəbul etməyə hazırdır".

# 160 min medal

## Müdafiə Nazirliyi medalların təqdim olunmasında gecikməyə aydınlıq gətirib

İyulun 6-da Müdafiə Nazirliyinə gəlmiş şəhid valideynləri və bir qrup Vətən müharibəsi iştirakçısı ilə görüş keçirilib.




Müdafiə Nazirliyindən verilən məlumata görə, görüşdə müvafiq sərəncamlarla təltif olunanların medallarının təqdim olunmaması məsələsi sorğu edilib.

Görüş iştirakçılarının nəzərinə çatdırılıb ki, onların hər biri Azərbaycan Respublikasının Prezidentinin sərəncamları ilə bir neçə medalla təltif olunub.

2020-ci ilin dekabr ayında və 2021-ci ilin iyun ayında elan olunmuş sərəncamlarla verilmiş medallar artıq hazırlanır və onların aidiyyəti üzrə təqdim olunması prosesinə başlanılıb. Azərbaycan Ordusu üzrə 160 000 medaldan yalnız 13 300 medal aidiyyəti üzrə təqdim olunub. Qeyd edilib ki, təltif olunanların sayının çox olması səbəbindən medalların hazırlanma prosesi müəyyən vaxt aparacaq.

Şəhid ailələri və qazilər dövlətin daim diqqət mərkəzindədir. Müdafiə Nazirliyi və hərbi hissələrin nümayəndələri tərəfindən bu kateqoriyadan olan ailələr mütəmadi ziyarət olunur, onların qayğıları və problemləri ilə maraqlanılır. Əlavə məsələlərlə bağlı müraciət edənlər isə nazirliyin rəsmiləri tərəfindən qəbul olunur və qaldırdıqları problemlərin həlli ilə bağlı müvafiq tədbirlər görülür.

# Musiqili Teatrın aktrisası beynəlxalq festivaldan diplomla qayıdıb

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktrisası, Əməkdar artist, Prezident mükafatçısı Nərgiz Kərimova Ukraynada keçirilən VIII "O-FEST" Beynəlxalq Opera, Operetta və Müzikl Festivalında uğurla çıxış edib və diploma layiq görülüb.



Lirik soprano səsli vokalçımız tədbirə Ukrayna Milli Operetta Teatrının bədii rəhbəri, festivalın təşkilatçısı Boqdan Strutinskinin dəvəti ilə qatılıb. 11 ölkənin vokalçılarının qatıldığı festivalda N.Kərimovanın çıxışı tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. O, festivalın qala-konsertlərində İmre Kalmanın "Mister X" operettasından Teodoranın ariyasını və Françesko Sartorinin "Con te partiro" mahnısını ifa edib.

Səfər təəssüratını bölüşən vokalçı festivalda iştirakı üçün yaradılan imkana görə hər kəsə – çalışdığı teatrın rəhbərliyinə, Azərbaycanın Ukraynadakı səfirliyinin əməkdaşlarına, şəxsən səfir Elmira Axundovaya və beynəlxalq festivalın təşkilatçılarına minnətdarlığını bildirib.

"Dünyanı cənginə alan pandemiya səbəbindən böyük səhnələrdən uzaq düşməyim, digər həmkarlarım kimi, məni də çox məyus edirdi. Yenidən o mühitə qayıtmaq sanki mənə dünyaları bəxş etdi. Əslində, uzun müddət teatrsız, səhnəsiz qalan aktrisa üçün birdən-birə geniş auditoriya qarşısına çıxmağın özü də böyük məsuliyyət idi. Lakin hər şey gözlədiyimdən də yaxşı alındı... Arzum budur ki, tezliklə ölkəmizdə də belə möhtəşəm festivallar keçirilsin və biz də yenə öz işimizin, sənətimizin əvvəlki axarına qayıdaq", – deyə o bildirib.

# Rasim İsmayılovun şəxsi arxiv fondu yaradılır

Azərbaycan Dövlət Film Fondunda Əməkdar incəsənət xadimi, kinorejissor, kinooperator Rasim İsmayılovun şəxsi arxiv fondu yaradılır.



Fonda görkəmli sənətkarın nadir fotoşəkilləri, əlyazmaları və s. arxiv sənədləri daxildir. Arxiv materialları sənətkarın həyat yoldaşı, Əməkdar jurnalist Nadejda İsmayılova tərəfindən təhvil verilib.

Arxiv fondunun yaradılması Rasim İsmayılovun 85 illik yubileyinə ithaf olunur.

Rasim İsmayılov 1936-cı il iyulun 13-də Bakıda anadan olub. 1958-ci ildə Bakı kinostudiyasında operator assistenti olub. 1958–1962-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Operatorluq fakültəsində təhsil aldıqdan aonra "Azərbaycanfilm"də işləməyə başlayıb. 1963–1978-ci illərdə kinostudiyada quruluşçu operator, 1977-ci ildən isə quruluşçu rejissor kimi bir neçə bədii film çəkib. 2004-cü il mayın 5-də vəfat edib.

Rasim İsmayılov "Yaşamaq gözəldir, qardaşım", "Torpaq, dəniz, od, səma", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Dədə Qorqud", "Xoşbəxtlik qayğıları", "Babək" və s. filmlərin quruluşçu operatoru olub. "Şir evdən getdi", "Asif, Vasif, Ağasif", "Sizi dünyalar qədər sevirdim", "Alman klinikasına şəxsi səfər" və s. bədii filmlərin rejissorudur. R.İsmayılov Azərbaycanda animasiya televiziya filmlərinin yaradıcılarından biridir. "Danışan işıqlar" və "Qırmızılar, qaralar və başqaları" animasiya filmlərinə də quruluş verib.

# Su və rəng ahəngi

## Akvarel sərgisində əsərləri nümayiş olunacaq rəssamlar müəyyənləşib




Beynəlxalq Sulu boya Cəmiyyətinin (İWS Globe) Azərbaycandakı nümayəndəliyi olan "İWS Azerbaijan"ın və Xətai Sənət Mərkəzinin nəzdində açılmış "İWS Baku Khatai Art Gallery"nin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə keçiriləcək "Su və rəng ahəngi –2021" akvarel sərgisində iştirak edəcək rəssamlar müəyyənləşib.

Xətai Sənət Mərkəzindən bildirilib ki, sərgidə iştirak etmək üçün 100-dən çox müraciət qeydə alınıb. Onların arasından "İWS Azerbaijan" akvarel cəmiyyətinin bədii şurası tərəfindən 51 iştirakçı müəyyən edilib. Seçilmiş rəssamlar iyulun 10-dək əsərlərini çərçivələnmiş vəziyyətdə Xətai Sənət Mərkəzinə təqdim etməlidirlər.

"Su və rəng ahəngi" sərgisi iyulun 15-də Xətai Sənət Mərkəzində təşkil olunacaq.

# Ədəbiyyat İnstitutu ilin birinci yarısının yekunlarını müzakirə edib

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi şurasının 2021-ci ilin birinci yarısının yekunları ilə bağlı iclası keçirilib.

İclası AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açıb. Akademik bildirib ki, "Azərbaycan ədəbiyyatı tarixi" oncildliyinin dördüncü cildi nəşr edilib. Bundan başqa, Türkiyədə yayımlanan "Qardaş qələmlər" dərgisinin bir sayı Nizami Gəncəviyə həsr olunub.

Qarabağ Zəfərinin ildönümünə hazırlıq və görkəmli ədəbiyyatşünas alim Abbas Zamanovun 110 illik yubileyinin qeyd edilməsi məsələləri müzakirə olunub.

Elmi katib, filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli Ədəbiyyat İnstitutunun 2021-ci il üzrə yarımillik elmi hesabatını, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Xanım Zairova aidiyyəti sahə üzrə yarımillik hesabatı təqdim edib.

# "Dumanlar başımda dastana döndü"

## YARAT Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gəncədə sərgi keçirəcək

YARAT Müasir İncəsənət Məkanı iyulun 8-də Gəncədə rəssam və fotoqrafların əsərlərindən ibarət "Dumanlar başımda dastana döndü" adlı qrup sərgisini təqdim edəcək. 2020-ci il Vətən müharibəsi dövründə Gəncə şəhəri Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı hücumlarının əsas hədəflərindən biri olub.




Sərgi Azərbaycanın Vətən müharibəsində tarixi Zəfərinə, ümumilikdə Qarabağ münaqişəsinə, eləcə də erməni silahlı qüvvələrinin müharibə cinayətlərinə həsr olunub.

"Dumanlar başımda dastana döndü" adlı qrup sərgisi Qarabağ münaqişəsini təsir və nəticələr aspektindən açıqlayır. Sərgi müharibə təfərrüatlarının və siyasi münaqişələrin travmatik yaddaşını gündəmə gətirir. Ekspozisiya müharibədən qabaqkı "nə sülh – nə hərb" illərinə səslənərək, regionun ən həssas probleminə köklənir və bu mürəkkəb səyahətin gedişatını əks etdirir. Bununla yanaşı, tarixi analiz edərək, onun qərəzli dövr və epizodlarının qiymətləndirilməsi, cəmiyyət və mədəniyyətin uğradığı deformasiya və zədələrin sənədləşdirilməsinə əsaslanır və xalqın bu çətin dövrlərinin müşahidəçisi qismində çıxış edir. Hərbi münaqişələrin nəticələri və siyasi böhranlarla yaxından bələd olanların simasında toplanılan əsərlər milli konteksti araşdırır və universal, fövqəlmilli səciyyə kəsb edən sualları ortaya çıxarır.

Sərgi həm şəxsi, həm də ümumi yanaşma prizmalarından keçərək, Qarabağ məsələsində yeni mərhələnin gəlib çatmasından bəhs edir. Bəşər tarixi üçün çox qısa, lakin lokal kontekstdə uzun işğal dövrü kimi tarixdə qalan otuz ilə yaxın müddət, müxtəlif nəsillərin üzləşdiyi fərqli siyasi durum və sosial reallıqları əks etdirir. Bu reallıqlar arasında kəsişən paralellərin olmadığını nəzərə çatdıraraq, nümayiş olunan əsərlər Qələbəyə aparan yollardan danışır.

Sərginin adı Vətən müharibəsində şəhid olmuş gizir Xudayar Yusifzadənin özünəməxsus ifasında səslənən və onun adı ilə əbədiləşən, görkəmli xanəndə Əlibaba Məmmədovun qəzəlxan Əliağa Vahidin sözlərinə yazdığı "Vətən yaxşıdır" təsnifindən götürülüb. Bu mahnı, həmçinin sərgidə nümayiş olunan Rəşad Ələkbərovun instalyasiyasının tərkib hissəsidir.

Ağababa Bağırov, Elnur Babayev, İlqar Cəfərov, Şahvələd Eyvazov, Erkin Ələkbərli, Rəşad Ələkbərov, Xalid Əsgərov, Mirnaib Həsənoğlu, Əli Qafarov, Cavid Qurbanov, Oleq Litvin, Əli Rza və Nurəhməd Vəliyev kimi rəssam və fotoqrafların instalyasiya, fotoqrafiya və rəqəmsal sənət əsərləri ilə dialoqa girərək, artıq həll olunmuş Qarabağ münaqişəsinin mürəkkəb pazlını tamamlayır. Ekspozisiyaya YARAT Müasir İncəsənət Məkanı və Azərbaycan Fotoqraflar Birliyinin fondlarında saxlanılan əsərlər və fotomateriallar daxil edilib.

Səyyar sərgi əsasında yerli mütəxəssislər tərəfindən təhsil proqramlarının həyata keçirilməsi də nəzərdə tutulub. Proqram çərçivəsində iştirakçılar müasir incəsənət sahəsində rəqəmsal dünya və virtual reallıq mövzularını araşdıracaq, həmçinin incəsənətdə müxtəlif ünsiyyət kanalları mövzusuna dair seminarlarda iştirak edəcəklər.

Sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və "Məhsəti Gəncəvi" Mərkəzinin təşkilati dəstəyi ilə həyata keçirilir.

"Dumanlar başımda dastana döndü" qrup sərgisi Gəncədəki "Məhsəti Gəncəvi" Mərkəzində iyulun 8-dən sentyabrın 25-dək davam edəcək.

# ATƏT PA-nın sessiyasında Ermənistanla Azərbaycan arasında etimad tədbirlərindən söz açılıb

İyulun 5-də Vyana şəhərində ATƏT Parlament Assambleyası (ATƏT PA) Daimi Komitəsinin iclası başlanıb.




Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri və qurumun vitse-prezidenti Azay Quliyev iclasda çıxış edib. Deputat 2020-ci ilin İkinci Qarabağ müharibəsi ilə bağlı Ermənistanda səslənən spekulyativ fikirlərə və revanşist çıxışlara toxunaraq bildirib ki, bu ölkə hələ də 44 günlük müharibədən dərs çıxarmağı və reallığı düzgün qiymətləndirməyi bacarmır. Ermənistanın ənənəvi ritorikasının nə özlərinə, nə də regiona heç bir faydası olmayacaq.

Azay Quliyev iclas iştirakçılarını Ermənistanla Azərbaycan arasında humanitar sahədə etimadın artırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məlumatlandırıb. Qeyd edib ki, ABŞ, Avropa Birliyi, ATƏT sədri və Gürcüstanın dəstəyi ilə 12 iyun 2021-ci ildə əldə olunmuş razılığa görə, Ermənistan Ağdam rayonunda yerləşdirilmiş 97 min tank və piyada əleyhinə minanın xəritələrini Azərbaycana təqdim edib, bunun əvəzində Azərbaycan ölkə ərazisində saxlanılan 15 ermənini geri qaytarıb. Qeyd olunan şəxslər müharibədən sonra, 2020-ci ilin dekabrında Ermənistan tərəfin Azərbaycan ərazisinə göndərdiyi təxribatçı qrupun üzvləri olub. Millət vəkili diqqətə çatdırıb ki, ikinci humanitar təşəbbüs 3 iyul 2021-ci ildə Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutdu. Bu dəfə Ermənistan Azərbaycanın Füzuli və Zəngilan rayonlarında işğal zamanı yerləşdirilmiş təxminən 92 min tank və piyada əleyhinə minanın xəritələrini təqdim edib. Buna cavab olaraq, Azərbaycan məhkəmənin hökmü ilə həbs edilmiş və təyin olunmuş cəzanın müddəti bitmiş daha 15 erməni vətəndaşını humanizmə əsaslanaraq Ermənistana təhvil verib.

Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri bildirib ki, Ermənistanı son humanitar tədbirlərin müvəffəqiyyətini möhkəmləndirməyə və Azərbaycandakı digər minalanmış ərazilərin xəritələrinin təqdim olunması üçün beynəlxalq ictimaiyyət və bölgədəki aktorlarla konstruktiv əlaqələri davam etdirməyə təşviq etmək lazımdır.

Daha sonra Azay Quliyev Ermənistanın otuzillik işğal dövründə ərazilərimizdə yerləşdirdiyi minaların partlaması ilə bağlı son 8 aydakı dəhşətli statistik məlumatları qeyd edib – məlum olduğu kimi, bu günə qədər minaya düşən 144 azərbaycanlının 27-si həyatını itirib və yerdə qalanları ağır yaralanıb: "Bu xəritələrin əldə edilməsi humanitar baxımdan böyük əhəmiyyət kəsb edir, çünki bununla minlərlə insanın, o cümlədən Azərbaycanın dağıdılmış şəhər və kəndlərinin bərpası və yenidən qurulması prosesində fəal iştirak edən beynəlxalq tərəfdaşlar və şirkətlərin nümayəndələrinin həyatını real təhlükədən xilas etmək mümkün olacaq".

Sonda Azay Quliyev ATƏT PA-nı və üzv ölkələri post-münaqişədən irəli gələn məsələlərin həllində, regionda qalıcı sülhün və barışın əldə olunmasında üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çağırıb.

Sessiyanın ikinci günündə ATƏT PA-nın plenar müzakirələri davam edib, həmçinin qurumun prezidenti, vitse-prezidentləri ilə bağlı seçkilər keçirilib.

Bu arada ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin xarici işlər naziri xanım Ann Linde Azərbaycan ilə Ermənistan arasında saxlanılanların və minalanmış ərazilərin xəritəsinin mübadiləsinə dair növbəti razılaşmanı alqışlayıb. Onun "Twitter" hesabındakı paylaşımında deyilir: "Saxlanılmış daha 15 erməninin Azərbaycan tərəfindən buraxılmasını və Ermənistanın minalanmış ərazilərin xəritəsini təqdim etməsini alqışlayıram. Rusiyanın vasitəçiliyini təqdir edirəm. Ümidvaram ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin himayəsi ilə daha çox etimadın yaradılması davamlı həllə yol aça bilər.

# Qarabağ enerji strategiyası

## İlin sonuna kimi hər rayonda yarımstansiya fəaliyyətə başlayacaq

"Ölkə başçısının tapşırıqlarına uyğun olaraq "Azərenerji" ASC tərəfindən işğaldan azad edilmiş ərazilərdə elektroenergetika infrastrukturu yaradılması və respublikanın enerji strukturuna inteqrasiyası istiqamətində Qarabağ enerji strategiyası hazırlanıb".

Bunu "Azərenerji" ASC-nin Texniki İstehsalat İdarəsinin şöbə rəisi Muxtar Mahmudov bildirib.

Onun sözlərinə görə, Qarabağ enerji strategiyası hər bir rayonda 110 kilovoltluq yarımstansiyaların tikintisini və onların yüksək gərginlik xətləri ilə ölkə sisteminə inteqrasiyasını nəzərdə tutur. Qarabağda regional mərkəz kimi Ağdam şəhərinin seçildiyini nəzərə alaraq, "Azərenerji" ASC Ağdam rayonunda 110 kilovoltluq iki yarımstansiyanın tikintisinə başlayıb.

Digər rayonlarda da – Cəbrayıl, Zəngilan, Qubadlıda 110 kilovoltluq yarımstansiyaların tikintisi davam edir: "Füzulidə ötən ay ölkə başçısının iştirakı ilə yarımstansiya açıldı, daha əvvəl Şuşada 110/35/10 kilovoltluq yarımstansiyanın açılışı həyata keçirilib. Kiçik SES-lərin bərpası istiqamətində də işlər davam edir. Ölkə başçısının iştirakı ilə istismara verilən ilk infrastruktur layihəsi kimi Laçın rayonu ərazisində Güləbird SES-i misal göstərə bilərik. Bundan əlavə, Suqovuşan-1, Suqovuşan-2 kiçik su elektrik stansiyaları da istismara hazır vəziyyətə gətirilib. Qarabağ enerji strategiyasına əsasən, işğaldan azad olunmuş bütün rayonlarda bu ilin sonuna kimi yarımstansiyalar fəaliyyətə başlayacaq".

# Ukraynalı alim Kiyev küçələrindən birinə Yusif Vəzir Çəmənzəminlinin adının verilməsini təklif edib

Kiyev küçələrindən birinə azərbaycanlı məşhur siyasətçi, yazıçı, tarixçi Yusif Vəzir Çəmənzəminlinin adı verilməlidir.

Ukraynalı alim, tarix elmləri namizədi, Taras Şevçenko adına Kiyev Milli Universitetinin Xarici ölkələrin yeni və ən yeni tarixi kafedrasının dosenti Oleq Kupçik bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. O vurğulayıb ki, Yusif Vəzir Çəmənzəminlini Ukrayna ilə bağlayan amillər çoxdur.



Alim diqqətə çatdırıb ki, 1993-cü ildə Kiyevdəki "Veselka" ("Göy qurşağı") nəşriyyatında ukraynalı gənc oxucular üçün Yusif Vəzir Çəmənzəminlinin "Дівоче джерело" ("Qızlar bulağı") kitabı çapdan çıxıb. Bu gün isə Taras Şevçenko adına Kiyev Milli Universitetinin Tarix fakültəsinin "Şərqşünaslıq" proqramı üzrə təhsil alan tələbələr onun fəaliyyətinin Kiyev dövrünü maraqla öyrənirlər.

Yusif Vəzir Çəmənzəminlinin Azərbaycan Xalq Cümhuriyyətinin Kiyevdə səfiri təyin edilməsindən də söz açan alim bildirib ki, bu, heç də təsadüfi olmayıb. Yusif Vəzir Müqəddəs Kiyevdəki Vladimir Universitetinin Hüquq fakültəsini bitirib. Birinci Dünya müharibəsi dövründə Kiyevin almanlar tərəfindən işğal edilməsi təhlükəsi vardı. Buna görə universitet Saratova təxliyə edilmişdi. Yusif Vəzir sonradan Saratov məhkəmə palatasında işə qəbul edilib. Az sonra maddi çətinliklər üzündən Ukraynaya qayıdan Yusif Vəzir Cənub-qərb cəbhəsinin zemstvosunda işə düzəlib. 1917-ci il fevral inqilabı başlananda Yusif Vəzir Çəmənzəminli Qaliçinada idi. O, burada Ukrayna Xalq Respublikasının rəhbər xadimləri ilə tanış olub. Alim bir faktı da qeyd edir ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü Vasili Kujimin qardaşı Aleksey Kujim (1919-1920-ci illərdə Ukrayna Xalq Respublikasının Azərbaycanda vitse-konsulu) universitetdə Yusif Vəzir Çəmənzəminli ilə birgə oxuyub: "Buna görə də Yusif Vəzirin Ukraynaya səfir təyin edilməsi tamamilə qanunauyğun idi: Yusif Vəzir bu ölkəyə və onun insanlarına bələd olmaqla bərabər Ukrayna xarici siyasətinin o vaxtkı rəhbərləri ilə şəxsən tanış idi".

"Ümidvaram ki, Kiyev küçələrindən birinə görkəmli yazıçı, əslən Azərbaycanın Şuşa şəhərindən olan, Kiyev Universitetində təhsil almış, ukraynalı oxucuların çoxu üçün Azərbaycan tarixi və mədəniyyətinə dair biliklərin mənbəyi olmuş Yusif Vəzir Çəmənzəminlinin adı veriləcək", – deyə Oleq Kupçik bildirib.

# İCESCO və UNESCO-dan birgə layihə

## "Gələcəyin Proqnozlaşdırılması Laboratoriyası"

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İCESCO) və BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) "Gələcəyin Proqnozlaşdırılması Laboratoriyası" adlı birgə layihə həyata keçirəcəklər.

İCESCO-nun mərkəzi ofisindən bildiriblər ki, iki təşkilatın nümayəndələri, həmçinin Səudiyyə Sənayeləşmə Korporasiyası və Frankofoniya Universiteti Agentliyi laboratoriyanın hazırlanması üzrə ilkin məsləhətləşmə aparıblar. Videokonfrans formatında keçirilən sessiyada qeyd olunub ki, dəyişən dünyanın müasir çağırışları fonunda beynəlxalq təşkilatların elm, təhsil və mədəniyyət sahələrində yeni birgə konsepsiyalara ehtiyacı var.

UNESCO-nun təhsil bölməsinin rəhbəri Ried Miller və İCESCO-nun Strateji Planlaşdırma Mərkəzinin direktoru Kais Həmmami gənc nəslin süni intellekt və ən müasir texnologiyalar əsrində, habelə pandemiya və yeni çağırışlar şəraitində adekvat təhsil alması, iş yerləri ilə təmin olunması sahələrində təşəbbüslərdən bəhs ediblər. Onlar diqqətə çatdırıblar ki, iki mötəbər humanitar təşkilatın yaradacağı laboratoriyada tanınmış analitiklər, Avropa, ABŞ və İslam ölkələri universitetlərinin alimləri məsləhətçi qismində çalışacaqlar. Burada ilk tədqiqat "Mümkün və arzu olunan gələcəyin qurulması" mövzusunda olacaq. Hökumətlərin və digər beynəlxalq humanitar təşkilatların da tədqiqatlara dəstək verməsi nəzərdə tutulur.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti və gələcək planları müzakirə olunub

Milli Məclisin deputatı Soltan Məmmədov Nizami Gəncəvi Beynəlxalq Mərkəzində olub. Mərkəzin baş katibi Rövşən Muradov, baş katibin müavini İlahə İbrahimli və təşkilatın əməkdaşları ilə görüşdə qurumun ötən dövrdəki fəaliyyəti və gələcək planları müzakirə edilib.



Görüşdə mərkəzin Nizami Gəncəvi irsinin beynəlxalq aləmdə tanıdılması və təbliği istiqamətində Heydər Əliyev Fondu ilə əməkdaşlığın mümkün istiqamətləri haqqında təkliflər səsləndirilib. Bu sahədə atılacaq birgə addımların əhəmiyyəti vurğulanıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Bosniya və Herseqovinada təşkil etdiyi "Qərbi Balkanda vəziyyətin qiymətləndirilməsi: irəliyə yol" mövzusunda ilk post-COVİD-19 konfransının əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, mərkəzin əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal fəaliyyətlərə töhfə verməkdir. Bununla yanaşı, Azərbaycanın görkəmli mütəfəkkiri Nizami Gəncəvi irsinin araşdırılması və təbliği təşkilatın əsas hədəfləri sırasındadır.

# "Əl-Cəzirə" Ermənistanın basdırdığı minaların qurbanları barədə reportaj yayımlayıb

Qətərin beynəlxalq "Əl-Cəzirə" ("Aljazeera") telekanalında Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində basdırdığı minaların qurbanları haqqında reportaj yayımlanıb.




Reportajda müharibədən sonra yüzdən çox mülki şəxsin mina partlayışı nəticəsində həlak olduğu və ya yaralandığı qeyd edilib.

İşğaldan azad edilmiş Ağdam rayonunun sakini Əsli Mahmudova telekanalın müxbirinə müsahibəsində oğlunun minaya düşərək həlak olduğunu, onun iki azyaşlı övladının atasız qaldığını söyləyib. Fermer Xalid Tahirov telekanala müsahibəsində deyib ki, o, minalanmış ərazilərdə heyvanlarını otara bilmir.

Reportajda həmçinin qeyd olunub ki, Azərbaycan hökuməti Ermənistanın minalanmış ərazilərin bütün xəritələrini vermək istəmədiyini bəyan edib.

# Hər azərbaycanlını dünya xəritəsində bir işıq kimi təsəvvür etsək...

Vətəni qüdrətli, milləti güclü edən ən vacib şərt birlikdir. Övladları dünya boyu səpələnmiş xalqların, o sıradan bizim, Azərbaycanın və azərbaycanlıların millət birliyinə həmişə ehtiyacı olub, bu gün isə bəlkə dünənkindən də daha çoxdur.

Bu sözlər Milli Məclisin deputatı, akademik Rafael Hüseynovun Diasporla İş üzrə Dövlət Komitəsinin yaranmasının (5 iyul 2002-ci il) ildönümü ilə bağlı "Hamımızın günü – Vətəni qüdrətli, milləti güclü edən ən vacib şərt birlikdir" sərlövhəli yazısında yer alıb.

Yazıda vurğulanır ki, müstəqilliyinin 30-cu ilini yaşayan dövlətimizin, Azərbaycan Respublikasının əhalisi 10 milyonsa da, dünya boyu azərbaycanlıların sayı bütövlükdə 50 milyondan çoxdur. Bu iki rəqəm arasındakı böyük fərq birliyimizin nə qədər zəruri olmasını, dünyanın ən ucqar guşəsindəki hər soydaşımızın, hər həmvətənimizin Vətənə hər zaman olduğundan daha yaxın durmasının mühümlüyünü tələb edir.

"Birlik arzusu, söz yox ki, hər azərbaycanlının ürəyində var. Biz tarix boyu torpağına, yurduna bağlı olmuşuq. Lakin tarixin və taleyin ayrı saldığı, Vətəndən uzaqlara apardığı həmvətənlərin daha yaxın əlaqələrinin qurulması, daha sıx birliyinin yaranması üçün körpülər gərəkdir" – deyə akademik qeyd edir.

Rafael Hüseynov daha sonra yazır: "Hər mənzildə, hər ünvanda işıq yansın deyə ən əvvəl ora xətt çəkmək lazımdır. Diaspor Komitəsi bu nəcib niyyəti gerçəkləşdirir ki, dünyanın ən ucqar nöqtəsində olan soydaşımıza da üz tutur. Çalışır ki, Vətənin işığı onlara, onların işığı Vətənə çatsın. Qovuşan işıqlarımızla yalnız birliyimiz daha sarsılmaz olmur, həm də gedəcəyimiz yollar daha aydın görünür. Hər azərbaycanlını dünya xəritəsini göz önünə gətirərək bir işıq kimi təsəvvür etsək, onu görərik ki, son 3 ildən artıq müddətdə bu işıqların sayı yüzlərlə deyil, minlərlə artıb".

Akademik "siyasətlərin və taleyin onillərcə Vətəndən ayrı saldığı" Cümhuriyyət qurucularımızın varislərinin doğma Azərbaycanı ilə, dövləti ilə, milləti ilə daha sıx bağlanması ilə əlaqədar Diaspor Komitəsinin son illərdəki fəaliyyətini də təqdirlə qeyd edir. Vurğulayır ki, Diaspor Komitəsi bu gün Bakıdan səmimiyyətlə dünyanın hər guşəsindəki azərbaycanlıya məhəbbətini bağışlamağa açılan qucaq, kürəyinizi söykəyə biləcəyiniz kürəkdir: "Hər birinizin ürəyində döyünən, bizi birgə və güclü edən Azərbaycan yaşasın!".

# Şuşa qoruğunun mühafizə zonası və ərazidəki abidələrlə bağlı təkliflər hazırlanacaq

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında sərəncam imzalayıb.

Nazirlər Kabinetinin 30 iyun 2021-ci il tarixli sərəncamında Mədəniyyət Nazirliyinə Ədliyyə Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının sərhədləri ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

Mədəniyyət Nazirliyi, həmçinin aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının mühafizə rejimi, Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi qaydası və müddəti, Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqavilələrinin forması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Bundan əlavə, Mədəniyyət Nazirliyinə Şuşa şəhərinin ərazisində abidələrin monitorinqinin keçirilməsi qaydasının layihəsi və Şuşa şəhərinin ərazisində üzərində və mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin siyahısı ilə bağlı təklifləri də iki ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

Sərəncama əsasən, Maliyyə Nazirliyi Ədliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi mənbələrinə dair təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

İqtisadiyyat Nazirliyinə isə Ədliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin siyahısı ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

## Şuşada bərpa və quruculuq işləri

### İstismar dövrü başa çatmış binalar sökülür

Şuşa şəhərində həyata keçirilən bərpa və quruculuq işləri çərçivəsində sovet dövründə inşa olunmuş, şəhərin tarixi memarlıq üslubu ilə uzlaşmayan, üstəlik istismar müddəti başa çatan bir sıra yaşayış binaları sökülür.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Şuşa şəhərində hansı binaların söküldüyünü açıqlayıb.

Komitədən açıqlanan məlumatlarda bildirilir ki, şəhərdə 6 yaşayış binası sökülüb. Sökülən binalar şəhərin Vaqif Cəfərov küçəsində (4 beşmərtəbəli bina), A.Qaraşarov küçəsində (1 beşmərtəbəli bina) və Ə.Haqverdiyev küçəsində (1 dördmərtəbəli bina) yerləşib.

# Mədəniyyət naziri Milli Dram Teatrının yaradıcı heyəti ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov iyulun 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının yaradıcı heyəti ilə görüşüb.




Teatrın bədii rəhbər-direktoru, Xalq artisti, professor Azər Paşa Nemətov nazirə mədəniyyət ocağının uğurları, repertuarda olan tamaşaları, texniki imkanları haqqında məlumat verib.

Mədəniyyət naziri Anar Kərimov Akademik Milli Dram Teatrında yaradıcı kollektivlə görüşməkdən məmnun olduğunu bildirib. Ölkəmizdə mədəniyyət sahəsinin inkişafı ilə bağlı Prezident İlham Əliyev tərəfindən nazirlik qarşısında mühüm vəzifələrin qoyulduğunu qeyd edən Anar Kərimov dövlətin bu sahəyə diqqət və qayğısından söz açıb. Bildirib ki, Mədəniyyət Nazirliyi teatr sahəsində islahatları özünün ən vacib, prioritet istiqamətlərindən biri hesab edir: "Çünki teatr tarixən milli ruhun qorunub saxlanılmasında böyük rol oynayıb. Biz Azərbaycan teatr sənətinin zəngin ənənələrini daha da inkişaf etdirməliyik. Teatrın inkişafına, yeni uğurlar qazanmasına dövlətin hər zaman dəstəyi olub, bundan sonra da olacaq".

Nazir əlavə edib ki, bir əsrdən çox tarixi olan Akademik Milli Dram Teatrında böyük sənətkarlar çalışıb, teatrda Azərbaycan və dünya dramaturgiyasının bir çox nümunələri tamaşaya qoyulub, bu səhnədə təqdim olunan tamaşalar eyni zamanda bizə tariximizi, ədəbi irsimizi tanıdıb, mənəvi dəyərlərimizi, milli kimliyimizi təlqin edib.

Pandemiyanın, mədəniyyətin digər sahələri kimi, teatr sahəsinə də zərbə vurduğunu, yaradıcı fəaliyyəti məhdudlaşdırdığını deyən Anar Kərimov tezliklə teatr müəssisələrinin fəaliyyətə başlayacağına və öz tamaşaçılarını yeni səhnə əsərləri ilə sevindirəcəyinə ümid etdiyini bildirib.

Xalq artistləri Nurəddin Mehdixanlı və Rafiq Əzimov çıxış edərək teatrın müasir cəmiyyətin həyatında oynadığı mühüm roldan danışıb, mədəniyyət nazirinə kollektivlə görüşdüyü üçün təşəkkürlərini bildiriblər.

## "Hər misram söyləyər: burda, burdadır"



Lənkəran Regional Mədəniyyət İdarəsi Q.Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş "Hər misram söyləyər: burda, burdadır" adlı teatrlaşdırılmış ədəbi-bədii kompozisiya təqdim olunub.

Mədəniyyət Mərkəzinin "Vaqif" dram truppasının Mehdi Hüseynin "Nizami" pyesinin motivləri əsasında hazırladığı kompozisiyada Ürgə kənd Yaradıcılıq evinin bədii rəhbəri, müğənni Elgün Əlizadə və mərkəzin "Ay lolo" rəqs qrupu bir-birindən maraqlı nömrələr təqdim ediblər.

Tədbir çərçivəsində Lənkəran şəhər Mərkəzi kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə kitab sərgisi də təşkil olunub.

Sonda Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov çıxış edərək Mədəniyyət Mərkəzinə, həvəskar aktyor truppasına gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, kompozisiyada Nizami obrazını Şağlaser kənd Sənətkarlıq klubunun əməkdaşı Əli Əkbərov, Afaq rolunu Kənarmeşə kənd Sənətkarlıq evinin müdiri Ofeliya Əliyeva canlandırıblar. Digər rolları Mənsur Hacıyev, Elnarə Abdullayeva və Nurlan Şiriyev ifa ediblər.

**NURƏDDİN**

## Azərbaycan-Avstriya Turizm Proqramı çərçivəsində "Məzun günü"

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) Azərbaycan–Avstriya Turizm Proqramı (AATP) çərçivəsində 2020/2021-ci dərs ilinin növbəti "Məzun günü" keçirilib. ATMU və Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universiteti arasında turizm ixtisası üzrə proqram tələbələrə hər iki tədris ocağının diplomunu almaq şansı verir.

ATMU-dan bildirilib ki, pandemiya səbəbindən beynəlxalq təhsil proqramı üzrə builki "Məzun günü" onlayn formatda təşkil olunub.

Tədbirdə çıxış edən ATMU-nun rektoru İlham Mədətov COVİD-19 dövründə təhsil sahəsində yaranmış problemlərdən də söz açıb. Məzunları təbrik edən rektor onlara gələcək karyeralarında müvəffəqiyyətlər arzulayıb.

İMC Krems Tətbiqi Elmlər Universitetinin nümayəndələri də məzunlara uğurlar arzulayıblar.

Qeyd edək ki, bu günədək ATMU-nun 260 tələbəsi Azərbaycan–Avstriya Turizm Proqramı üzrə təhsili uğurla başa vuraraq ikili diplom qazanıb.

AATP çərçivəsində müxtəlif illərdə həm bakalavriatura, həm də magistratura səviyyələri üzrə əməkdaşlıq müqavilələri imzalanıb. 2020-ci ildə Dövlət Turizm Agentliyinin dəstəyi nəticəsində AATP proqram üzrə əməkdaşlıq müqaviləsinin müddəti uzadılıb.

**Bölgələrdən xəbərlər**

## "Nizami Gəncəvi İli" münasibətilə

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin kənd kitabxana filialları dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə videoçarxlar hazırlayıblar.



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Qorxmazoba kənd kitabxanasının təşkilatçılığı ilə açıq havada "oxu günü" təşkil edilib. MKS-nin Paşaoba kənd kitabxana filialı isə "Nizami Gəncəvi – 880" adlı tədbir keçirib.

Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon Şirvanlı kənd kitabxanasında kiçikyaşlı oxucular üçün "oxu saatı" təşkil edilib. Tədbirdə kitabxananın fəal oxucuları tərəfindən Nizaminin poemalarından müvafiq olaraq "İlin fəsilləri", "Hind gözəlinin dastanı", "Xeyir və Şər", "Nuşirəvanla vəziri və bayquşların söhbəti" hekayələri səsləndirilib. Zaqatala rayon Kəpənəkçi kənd kitabxanasında "2021-ci il "Nizami Gəncəvi İli"dir" adlı "müzakirə saatı" keçirilib. Balakən rayon Mahamalar kənd Folklor evində "Xosrov və Şirin" poemasının təhlili aparılıb.

# Vətəni canından əziz bilənlər



Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzinin Qarabağlı Diyarşünaslıq evində I Qarabağ müharibəsi şəhidi Bəxtiyar Ağayevin ailə üzvləri ilə görüş keçirilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin Uşaq şöbəsi Vətən müharibəsi şəhidi Röyan Hüseynovun ailəsi ilə "Şəhidlik şərəf, qeyrət rəmzidir" adlı onlayn görüş təşkil edib.

Şəki Regional Mədəniyyət İdarəsi Balakən şəhər 2 saylı Diyarşünaslıq klubunda "Vətənin mərd oğulları" adlı görüş keçirilib. Görüşdə 44 günlük Vətən müharibəsində gözünü qırpmadan ölümün üzərinə gedən qəhrəman hərbçilərimizdən söz açılıb.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Əliheydər Hüseynlinin xatirəsinə həsr edilmiş "Oğul düşmən çəpəridir!" kitabının müəllifi şairə Esmira Günəşlə onlayn görüş keçirilib. Görüşdə qəhrəman şəhid haqqında videoçarx nümayiş olunub.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi İlyas Nəsirovun doğum günü münasibətilə tədbir keçirilib. Tədbirdə regional idarənin rəisi Faiq Xudanlı,



rayondakı mədəniyyət müəssisələrinin rəhbərləri, qazilər, şəhidin ailə üzvləri və döyüş yoldaşları iştirak ediblər.



Masallı Regional Mədəniyyət İdarəsi Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Vətən Müharibəsi Qəhrəmanı, baş leytenant Qəzənfər Ağayevlə rayon gənclərinin görüşü keçirilib.

Şəmkir Regional Mədəniyyət İdarəsi Şəmkir şəhər Əhməd Cavad adına Mədəniyyət Mərkəzinin əməkdaşları N saylı hərbi hissədə əsgərlərlə görüş keçiriblər. İdarənin Göygöl rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə Göygöl rayon Mədəniyyət Mərkəzinin "Nərgiz" xalq kollektivinin N saylı hərbi hissədə konsert proqramı təqdim olunub.

# Müxtəlif səpkili tədbirlər



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Ayaz Abbasov adına Qaradağlı kənd tam orta məktəbinin 5-ci sinif şagirdlərinin Ağdam Rayon Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiyası təşkil edilib. Muzeydə məktəblilərə Ağdam rayonunun qədim tarixini, zəngin keçmişini və mədəniyyətini özündə əks etdirən eksponatlar haqqında məlumat verilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala rayon Heydər Əliyev Mərkəzində AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Qüdsiyyə Qəmbərovanın "Azərbaycan dilinin Neftçala rayon şivələri" adlı monoqrafiyasının təqdimatı keçirilib.



Bərdə Regional Mədəniyyət İdarəsində aparat işçilərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə ötən həftə ərzində görülmüş işlər və növbəti həftə ərzində qarşıda duran vəzifələr müzakirə olunub. Bərdə rayon MKS-nin Kolayır kənd kitabxana filialı oxucularına səyyar kitabxana xidməti göstərib. MKS-nin Kərimbəyli və Mehdixanlı kənd kitabxana filialları Azərbaycan yazıçısı, publisist, geoloq Şamo Rəhimovun (Şamo Arif) 85 illiyi münasibətilə videoçarxlar hazırlayıblar.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin 7 saylı kitabxana filialı yazıçı-publisist Əlisəfa Azayevin 70 illiyi ilə əlaqədar kitablarının xülasəsini keçirib. Gəncə şəhər Uşaq incəsənət məktəbində 2020-2021-ci tədris ilinin nəticələrinə həsr olunmuş tədbir təşkil olunub. Samux rayon Heydər Əliyev Mərkəzi, Samux rayon Mərkəzi kitabxanasının Oxucülara xidmət şöbəsi və Sarıqaya kənd kitabxana filialı birgə "Məhəbbət dastanını yazanlar" adlı videokonfrans keçirib. Samux rayon Mədəniyyət Mərkəzi 2 iyul - Azərbaycan Polisi Günü münasibətilə videokonfrans keçirib.



Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa Dövlət Rəsm Qalereyasında "Narkomaniyadan gəncləri qoruyaq" adlı sərgi təşkil edilib. Qazax rayon MKS "Prezident - xalq birliyinin möhtəşəm təntənəsi" mövzusunda videokonfrans keçirib. Tədbirdə "Azərbaycan tarixinə şanlı Qələbə yazan lider" adlı sərgi nümayiş olunub. Tovuz rayon MKS-nin "Gənclərin asudə vaxtının təşkilində kitabxananın rolu" mövzusunda onlayn tədbir keçirilib. Tədbirdə kitabxana əməkdaşları yeniyetmə və gənclərdə mütaliəyə marağın artırılması, onların asudə vaxtlarının səmərəli təşkil olunması, eləcə də kitabxanaya cəlb edilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Mərkəzi kitabxanasında Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist Əlisəfa Azayevin 70 illik yubileyi münasibətilə kitab sərgisi keçirilib. Tədbirdə çıxış edənlər yazıçının həyat və yaradıcılıq yolu haqqında ətraflı məlumat verib, əsərlərinin ideya-bədii məziyyətləri haqqında danışıblar.

Şəki Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Balakən rayon Qullar kənd Sənətkarlıq evi gənc və yeniyetmələrin iştirakı ilə narkomaniyaya qarşı mübarizə məqsədilə "Ağ ölüm" adlı onlayn görüş təşkil edib.

Oğuz rayon MKS-nin Çaldaş və Bayan kənd kitabxanalarında "Yay məktəbi" ilə əlaqədar "nağıl saatı" təşkil olunub.



Səməd Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzi açıq havada "Aç qəlbini varaq-varaq" adlı əyləncəli tədbir keçirib. Tədbirdə milli geyimdə xalqa üzərində əyləşmiş Mədəniyyət Mərkəzinin əməkdaşları xalq yaddaşından süzülüb gəlmiş bayatılar, laylalar söyləyiblər. Mərkəzin nəzdində fəaliyyət göstərən İ.Dağıstanlı adına Xalq teatrının gənc və istedadlı aktyoru İbrahim Paşayevin söylədiyi yanıltmaclar isə tədbirə xüsusi rəng qatıb.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Mərkəzi kitabxanasının Oxuculara xidmət şöbəsinin təşkilatçılığı ilə Əlisəfa Azayevin 70 illiyinə həsr olunmuş "Detektiv əsərlər müəllifi" adlı onlayn tədbir keçirilib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# “Əsərlərim qəlbimin çağırışıdır”

## Xanlar Əhmədov: “Məktəbli illərimdə hər il yayı Şuşada keçirərdim. 75 yaşımda Şuşanı belə görmək mənə çətin idi”

Heykəltəraşın hər bir əsəri onun həyatı, övladı, yaratdığıdır, Allah tərəfindən ona verilən qüdrətdir deyir, Xalq rəssamı Xanlar Əhmədov. Bu il 75 illik yubileyini qeyd edən sənətkarla görüşmək planımız bir müddət əvvələ nəzərə tutulmuşdu. Bu arada heykəltəraş Şuşaya getməli oldu. Söhbətimiz də bu səfərdən sonra baş tutdu.

*– Xanlar müəllim, elə Şuşa təəssüratınızdan başlayaq söhbətimizə. Səfərin məqsədi də öz yerində...*

– Təqribən 40 il əvvəl dostum, Əməkdar rəssam Namiq Dadaşovla Şuşada Bülbülün və Üzeyir bəyin büstlərini işlədik. O heykəllər ki, sonradan talelərinə “Güllələnmiş heykəllər” adı yazıldı. 44 günlük müharibənin möhtəşəm Qələbə sevinci və Şuşanın azad edilməsindən sonra cənab Prezident bu heykəlləri öz doğma yurduna qaytardı. Şuşada digər işlədiyim heykəltəraşlıq nümunəsi isə Bülbülün Ev-Muzeyinin qarşısında müğənninin qaval içərisində olan heykəli idi. Həmin heykəli də mənfur ermənilər darmadağın edib tuncunu aparmışdılar. Prezident İlham Əliyev Şuşa səfərində bildirdi ki, Bülbülün evi təmir edilib əvvəlki vəziyyətinə qaytarılmalıdır. Xalq artisti Polad Bülbüloğlu hazırda ata yurdunun bərpası ilə bağlı işlərə başlamaq istəyir. Elə bu səbəbdən də mənimlə əlaqə yaradıb heykəlin yenidən bərpası ilə bağlı fikirlərimi öyrəndi. Beləliklə, şükür olsun ki, mən də bu günü, azad Şuşanı gördüm və heykəlin yenidən yerində bərqərar olunmasını həyata keçirəcəyəm. Böyük həvəslə bu işə başlayacağam. Şuşaya getməyimin məqsədi də bu idi.

Təəssürata gəlincə isə, qədim şəhərimizə Zəfər yolu ilə getməli olduq. Bir az mənə ağır təsir etdi. O səbəbdən ki, mənim ana tərəfim şuşalıdır. Şuşada babamın evi də var. Hətta 40 il əvvəl Şuşanın icra nümayəndəsi mənə demişdi ki, indi bu evdə erməni ailəsi yaşayır, amma biz evi boşaltdıra bilərik. Lakin o zaman razı olmamışdım. Nə biləydim ki, bir neçə il sonra onların belə məkrləri ortaya çıxacaq. Məktəbli illərimdə hər il yay tətilini Şuşada keçirərdim. Şuşa mənə doğmadır. 75 yaşımda Şuşanı yenidən belə görmək mənə çətin idi. İkili hisslər yaşayırdım. Sevinc hissi – öz torpağımda addımlayıram və bu şəhəri yaddaşımda qalan Şuşa kimi görməməyin qüssəsi. Axşamlar Şuşa məscidi tərəfdə qələbəlik, məhəllələrdəki çal-çağır, bulaq qarşısındakı növbə, bir də yerlə yeksan olunmuş mədəniyyət evi canlanırdı gözlərim önündə. Dünyanın ən gözəl şəhərləri belə insan amili yoxdursa, əhəmiyyətini itirir. İnanıram ki, Şuşada həyat bərpa olunacaq.

*– Xatırlayıram, bir neçə il əvvəl siz “Güllələnmiş heykəllər”in bərpasına etiraz etmişdiniz...*

– Bəli, buna etiraz etmişdim və sevindim ki, bizim bir müəllif kimi o dövrdə fikrimiz dinlənildi, bu heykəllər restavrasiya olunmadı. Biz üreyiyumşaq xalqıq, təəssüf ki, tarixi unutqanlığımız da var. Odur ki, bu heykəllər gələcək nəsillərə bir ibrət dərsi olacaq.

*– Demək, gələcək üçün də restavrasiya nəzərdə tutulmayıb?*

> Təqribən 40 il əvvəl dostum, Əməkdar rəssam Namiq Dadaşovla Şuşada Bülbülün və Üzeyir bəyin büstlərini işlədik. O heykəllər ki, sonradan talelərinə “Güllələnmiş heykəllər” adı yazıldı. Şuşada digər işlədiyim nümunə isə Bülbülün evinin qarşısındakı heykəli idi.

– Xeyr, olunmaycaq. Bu bir tarixdir və yaddaş səhifəmizdir.

*– Müsahibələrinizdə deyirsiniz ki, heykəltəraşların heç zaman boş vaxtı olmur. Olanda isə ürəyimiz istəyən əsərləri yaradırıq. Sizin ürəyiniz istəyən əsərlərin mövzusu nə olur?*

– Son 30 ildə boş vaxtımın hamısını Xocalı faciəsinə həsr etmişəm. Elə oldu ki, həmin gecə mən hadisənin içinə düşdüm. Həmin gün Ağdamda idim və Ağdama gətirilən yaralılar, şəhidlər hamısı gözümün qarşısındadır. Sənətkar üçün də bu, həssas mövzudur. Son 20 ildə Xocalıya həsr edilən bütün müsabiqələrdə iştirak etmişəm və hamısında da əsərlərim yer qazanıb. Əslində, bu əsərlər ürəyimin çağırışıdır.





Yaradıcılıq belə işdir ki, bir var sifariş olunur, bir də var qəlbinin səsi ilə hazırlayırsan.

*– Hazırda həyətdə tamamlanmamış bir heykəl görürük. Cəfər Cabbarlının heykəli...*

– Bəli, bu heykəl sifarişdir. Gəncə Dövlət Dram Teatrının qarşısında qoyulacaq. İki heykəl nəzərdə tutulub. C.Cabbarlı və M.F.Axundzadə. Hazırda bu heykəl üzərində çalışıram. Azad mövzulara gəlincə isə, gənclik illərimdə bu mövzular fərqli idi. Sevgi, ana və s. Bu mövzulara ürəkdən yanaşırdım.

*– Bəs başqa hansı sifarişiniz var?*

– Eskiz kimi xarıbülbül heykəli nəzərdə tutulub. Simvolik güldür. Gülü, yarpağı, budağı heykəl dilinə çevirmək bir az çətindir. Onun öz yolları var. Sonra “Dəmir yumruq”, “Ana” heykəli var. Ana kimi o nə fəryad edir, nə də danışır. O, əsgərlərə yol göstərir, inamlı olmağa çağırır. Yəni bu günün mövzuları artıq bu heykəllərdir.

*– Əsgər demişkən, bu mövzuda da yeni işiniz olmalıdır, məncə...*

– Bəli, həmin iş böyük həcmli olduğu üçün digər emalatxanadadır. “Bayraq sancan əsgər”. Bu heykəl Şirvan şəhərində qoyulacaq. Daha önəmli bir işim isə ulu öndər Heydər Əliyevin büstüdür ki, həmin iş də tamamlanmaq üzrədir. Son işlərdən biri də general Əliağa Şıxlinskinin qəbirüstü abidəsi oldu.

*– Bülbülün Şuşada heykəli nə vaxta nəzərdə tutulub?*

– İnşallah, yəqin ki, 8 Noyabr – Qələbə Gününə, ilin axırına kimi yekunlaşdırmağa imkan olacaq.

*– Hacı Zeynalabdin Tağıyevin heykəlini də hazırlamısınız. Nə vaxt qoyulacaq?*

– Bu mövzuda son günlər mənə çoxsaylı zənglər olub. Heykəl il yarım bundan əvvəldən hazırdır. Pandemiya, müharibə şəraiti. Heykəlin ləngiməsi səbəbləri başa düşülməlidir. Yaxın iki ay müddətində açılışı nəzərdə tutulur.

*– Xanlar müəllim, yubileyiniz ərəfəsində zəngləşdik. Dediniz ki, heç vaxt ad günü qeyd etmirsiniz. Amma bir az da həyat və yaradıcılıq yolunuza nəzər salaq...*

> Heykəltəraşların emalatxanalarında çox gözəl heykəllər var. Onları cəmiyyətə tanıtmaq lazımdır. Xüsusən də boş parklarda həm gənc, həm də yaşlı rəssamların yaradıcılıq nümunələri nümayiş olunmalıdır. Elə köhnə heykəllər də qorunmalı idi. Çünki tarixdir.

– Hamı yubiley və 75 rəqəmini qeyd edir. Amma mən öz yaşımda 35-dən yuxarı keçə bilmirəm. Hələ də 35 yaşımda qalmışam. Bu günlərdə isə oxudum ki, insan həyatını dəyişəndə, bu dünyadan o biri dünyaya qədəm qoyanda 35 yaşında olur. Bu məni çox düşündürdü. Ümidverici haldır. Demək, mən həmişə bu yaşda olacağam.

*– Yəqin 35 yaşınızda həyat və yaradıcılığınızda çox önəmli hadisələr olub ki, bu yaşın təsirindən çıxa bilmirsiniz, eləmi?*

– Əlbəttə. 35 yaş elədir ki, həyat sənin əlindədir. Həm də bizim dövrün 35 yaşı tamam başqa idi. İndi bəzən gənclərə baxıram 35 yaşda hələ də 15 yaşdakı kimi düşünənlər çoxdur. Mən öz 35 yaşımı düşünəndə o vaxtkı fəaliyyətimi xatırlayıram. Rəssamlar İttifaqından ezamiyyətlər, heykəl eksperti kimi fəaliyyətim və s. Amma etiraf edim ki, elə insanlar da var ki, 80 yaşında belə 12 yaşdakı düşüncə ilə yaşayırlar...

*– Dünən zəng etdiyim zaman qəbul komissiyasında imtahanlarda olduğunuzu qeyd etdiniz. Yeni nəsil, gənc rəssamlar ümidvericidirmi?*



– İstedadlı gənclər var. Amma bizim zaman ilə götürəndə fərqlidirlər. Çox da işgüzar deyillər. Bizim kursumuzda Fərhad Xəlilov, Ağaəli İbrahimov, Şərif Şərifov, Rafael Əsədov, Namiq Dadaşov, Rafael Muradov və digərləri vardı – bu gün hamısı tanınmış adlardır. Ancaq əməksevərlik onları bu yerə çıxardı. Elektrik qatarına pulumuz olmayanda xəlvət minib Buzovnaya gedər, gəzib öyrənərdik. Ağaəli ilə kitabxanalardan kitab səhifələrindən Pikassonun işlərini oğurladığımızı da etiraf etməliyəm. Çox sayda kitablar alıb oxuyardıq. Amma bu gün internetdə istədiyimiz sahələr üzrə zəngin məlumat var. Buna baxmayaraq, tələbələr tənbəldirlər. Onu da qeyd edim ki, hazırda rəssamlıqda əsasən qızlar təhsil alır. Narahatlıq doğuranı budur ki, birinci kursda tələbələrlə tanış olan zaman çoxu deyir balı çatmadığı üçün bu sahəni seçib.

*– Bir neçə il əvvəl heykəllər parkı ilə bağlı fikir irəli sürmüşdünüz. Bu gün də aktualdırmı həmin məsələ?*

– Bəli, mən 30 ildən çoxdur ki, Rəssamlar İttifaqında heykəltəraşlıq cəmiyyətinin sədriyəm. Bu səbəbdən də emalatxanalarda çox oluram. Heykəltəraşların emalatxanalarında, orta və yaşlı nəsildə çox gözəl heykəllər var. Onları cəmiyyətə tanıtmaq lazımdır. Xüsusən də boş parklarda həm gənc, həm də yaşlı rəssamların yaradıcılıq nümunələri nümayiş olunmalıdır. Elə köhnə heykəllər də qorunmalı idi. Çünki tarixdir. Mən Hindistanda olanda görürdüm ki, hansısa ingilis lordun heykəlinin üzərində “Bu, ingilis müstəmləkəsi zamanına aid əsərdir” qeydi var. O vaxt paytaxtın “Dostluq” parkında heykəllər parkının yaradılması təklifini irəli sürmüşdüm...

Söhbətimizi masa ətrafında yekunlaşdırıb emalatxanaya keçirik. Burada heykəllərin kiçik maketləri var və bəzi əsərlərin üzərində bərpa işinin getdiyinin şahidi oluruq. Xanlar müəllim bizə sənətə gəlişindən danışır: “Rəssamlıq, heykəltəraşlıq mənə qanla keçib. Dayılarım həmişə evdə uşaqlar arasında müsabiqə edərdilər və nədənsə həmişə mən qalib gələrdim. Bu qalibiyyətlər məni sənətə bağladı”.

Sənətkar Hacı Zeynalabdin Tağıyevin heykəllərinin digər nümunələrini bizə göstərir. Deyir ki, heykəl yaradılarkən onun maliyyə tərəfləri də nəzərə alınmalıdır.

Sonra Xanlar müəllimin kitabxanası ilə tanış oluruq. Heykəltəraş bu kitabxananı nəvəsinə cehiz verməyi düşünür...

Xanlar müəllimlə maraqlı müsahibəyə görə sağollaşıb ayrılırıq. Yolboyu yaratdığı heykəlləri göz önünə gətirirəm. Hər biri Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm izlər qoymuş insanlara həsr olunub. Bu heykəllər yaradılarkən müəllif onların həyatını, xarakterini oxuyur, öyrənir və beləliklə, bir heykəltəraş taleyində onlarla insan ömrü yaşanır. Sevərək seçilən sənətdə isə bu iş yorucu deyil, sənətə böyük töhfələrlə müşayiət olunur. Bu sevginin gerçək nümunəsi isə Xalq rəssamı Xanlar Əhmədovun zəngin yaradıcılıq irsidir.

**LALƏ**

# “Xosrov və Şirin” bədii serialı çəkilir

Nizami Gəncəvinin 880 illiyinə həsr edilən 12 bölümdən ibarət ”Xosrov və Şirin” bədii serialının çəkilişləri davam edir. Layihə Mədəniyyət Nazirliyinin dəstəyi ilə ”Azərbaycanfilm” Kinostudiyası və İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə istehsalıdır.



Kinostudiyadan bildirilib ki, serialda “Xosrov və Şirin” poemasındakı hadisələrin kompozisiyası və süjeti saxlanılmaqla müasir dövrümüzə proyeksiya olunub. Psixoloji dram strukturunda olan serialın qayəsi həm müasir tamaşaçıları Nizami Gəncəvi yaradıcılığı ilə tanış etmək, həm də onun kəlamlarını bir daha diqqətə çatdırmaq, gələcək nəsillərə ötürməkdir.

Eyni zamanda serial göstərəcək ki, dahi Azərbaycan şairinin səkkiz əsr öncə yazdığı bir əsərdə dramaturji qaydalar, süjetin inkişaf xətti kimi prinsiplər necə dəqiqliklə yerinə yetirilib. Buna görə də bu əsər və əsərdəki qəhrəmanlar, xarakterlər bu günün bir çox ədəbi əsərlərindən daha müasir və daha aktualdır. Məhz bu əsərin süjeti əsasında serialın çəkilməsinin bir səbəbi də var. Məlumdur ki, üzdəniraq erməni ədəbiyyatçıları bu əsərdəki Şirin obrazını erməni şahzadəsi kimi təqdim edirlər. Bu baxımdan serialın istehsalı ideoloji vasitə kimi də əhəmiyyət kəsb edir.

Çəkilişləri Bakının Mərdəkan, Şüvəlan və Maştağa qəsəbələrində aparılan bədii serialın rejissorları Xəyyam Abdullazadə və Elməddin Alıyev, ssenari müəllifləri isə İlqar Fəhmi və Xəyyam Abdullazadədir. Xosrov obrazını Rüstəm Cəbrayılov, Şirini isə Kəmalə Piriyeva canlandırır.

# Ekranlara yeni filmlər gəlir...

Cəfər Cabbarlı adına ”Azərbaycanfilm” Kinostudiyasında 3 bədii tammetrajlı film istehsal prosesindədir. Bu barədə kinostudiyanın mətbuat xidmətindən məlumat verilib.



Rejissor Elçin Musaoğlunun “Məryəm” filminin çəkilişlərinə may ayından başlanılıb. Hazırda Zaqatala-Balakən bölgəsində son çəkilişlər gedir və iyulun 10-na kimi çəkilişlər tamamlanacaq. Ekran əsərinin ilin sonuna tamaşaçılara təqdim olunması nəzərdə tutulub. Dram janrında olan filmin süjet xətti ölmüş bildiyi atasını görmək üçün uzun illər sonra Azərbaycana gələn və onu ucqar rayonda yerləşən ruhi-əsəb xəstəxanasında tapan Məryəm adlı qızdan bəhs edir. Qeyd edək ki, filmlə bağlı əlavə məlumat növbəti günlərdə mətbuata açıqlanacaq.

İkinci Qarabağ müharibəsinə həsr olunmuş kinorejissor Vaqif Mustafayevin “Fəryad 2” filmi ilə bağlı hazırlıq prosesləri gedir. Filmin məkan çəkilişlərinə hazırlıq məqsədilə Hadrut və Bakı şəhərində dekorasiyalar qurulur. İyul ayının 15-dən sonra çəkilişlər başlanacaq.

Asif Rüstəmovun “Mərmər soyuğu” adlı filmi isə fransalı şirkətlə birgə lentə alınacaq. İlin sonuna qədər bu iki filmin də çəkilişlərinin tamamlanması nəzərdə tutulub.



Eyni zamanda, kinostudiyada bir neçə sənədli filmin çəkilişləri də davam edir. “Görünməyən qəhrəmanlar” adlı 5 hissəli silsilə xronikal filmlərin istehsalı prosesinə artıq start verilib. Silsilə filmlər İkinci Qarabağ müharibəsində öz qəhrəmanlıqları ilə ad qazanmış döyüşçülər haqqındadır. Mədəniyyət Nazirliyinin “Böyük qayıdış” ssenari müsabiqəsinin qalibi olan “Fulya” sənədli filmi tamamlanıb və montaj prosesindədir.

**L.AZƏRİ**

# “Animafilm”in uşaq münsiflər heyətinə üzvlərin seçimi

Oktyabrın 20-dən 24-dək Bakıda keçiriləcək IV ”Animafilm” Beynəlxalq Animasiya Festivalının Təşkilat komitəsi festivalda uşaqlardan ibarət münsiflər heyəti yaradacaq.

Festivalda uşaqlar və böyüklər üçün çəkilmiş onlarla yerli və xarici animasiya filmləri təqdim ediləcək.

Təşkilatçılar builki festivalda uşaqlardan ibarət münsif heyətinə qoşulmaq hüququnun şərtlərini elan edib. “Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi” və “Uşaqlar tərəfindən çəkilmiş ən yaxşı qısametrajlı animasiya filmi“ müsabiqəsinin qaliblərini 20-30 nəfər uşaqdan ibarət olan münsiflər heyəti müəyyən edəcək.

Münsif olmaq istəyənlər müraciətlərini avqustun 15-dək animafilm.biaf@gmail.com e-poçt ünvanına göndərilməlidir.

Nəticələr avqustun 31-də www.animafilm.az saytında dərc olunacaq.

# Qobu emalatxanasında ilin ən böyük xalçası kəsilib

”Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin (ASC) Qobu emalatxanasında son bir ildə toxunan ən böyük ölçülü xalça kəsilib. İyulun 2-də kəsilən xalçanı beş ay müddətində 4 xanım toxuyub.



“Azərxalça”nın mətbuat xidmətindən bildirilib ki, Quba məktəbinə aid “Pirəbədil” çeşnisi ilə toxunan xalça 24 kvadratmetrdir. Bu, Qobu emalatxanasında kəsilən dördüncü böyük ölçülü xalçadır.

Qeyd edək ki, iriölçülü (24-25 kvadratmetr) xalçaları toxumaq üçün “Azərxalça”nın hər emalatxanasında 2 böyük xalça dəzgahı mövcuddur.

“Azərxalça” ASC-nin Abşeron rayonunun Qobu qəsəbəsində xalça istehsalı emalatxanası 2018-ci ilin dekabrında fəaliyyətə başlayıb. Emalatxananın Qobu qəsəbəsinin ərazisində yaradılması təsadüfi deyil. Çünki bu qəsəbədə həm tarixən xalçaçılıqla məşğul olublar, həm də filialın yerləşdiyi ərazi xalçaçılığın yaşadıldığı Güzdək, Aşağı Güzdək və Hökməli qəsəbələrinə təqribən eyni uzaqlıqda olan məsafədə yerləşir. Burada əsasən Bakı qrupu Azərbaycan xalçalarının toxunmasına üstünlük verilir.

# “Dayana bilmərik, ancaq irəli!”

## Baş leytenant Mahmud Məlikov ölüm ayağında da yaralı əsgərini qorumağa çalışırdı...

44 günlük Vətən müharibəsi Azərbaycan zabitlərinin öz əsgərlərinə gerçək qəhrəman örnəyi olduqlarını göstərdi. Əsgərlərinin önündə gedərək onları daha mübariz olmağa həvəsləndirən belə cəsur zabitlərdən biri də şəhid baş leytenant Mahmud Məlikovdur.




Mahmud Təhmasib oğlu Məlikov 1994-cü il aprelin 3-də Neftçala rayonunun Xolqaraqaşlı kəndində anadan olub. 2000-ci ildə Qismət Nuraliyev adına Xolqaraqaşlı kənd tam orta məktəbinin birinci sinfinə gedib. Təbiətcə çox sakit olan Mahmud orta məktəbdə oxuduğu vaxtdan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmağı arzulayırdı. 2011-ci ildə orta məktəbi bitirib arzusuna çatır. Ali hərbi məktəbə qəbul olunur. O, kursant kimi təlim-tədrisə böyük məsuliyyətlə yanaşır. Hərb sənətinin sirlərini dərindən yiyələnir.

2015-ci ildə Ali Hərbi Məktəbi müvəffəqiyyətlə başa vuran Mahmud Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissənin ön cəbhədəki bölməsində taqım komandiri kimi xidmətə başlayır. 2017-ci ildən isə Beyləqan rayonundakı N saylı hərbi hissədə bölük komandiri kimi xidmətini davam etdirir. Xidməti dövründə nizam-intizamına görə təşəkkürnamə, həmçinin 2018-ci ildə Azərbaycan Ordusunun yaranmasının 100 illik yubiley medalı ilə təltif edilir. 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz rayonu istiqamətində törətdiyi təxribatların qarşısının alınmasında fəal iştirak edir.

Sentyabrın 27-də Vətən müharibəsi başlananda baş leytenant Mahmud Məlikov da silahdaşları ilə birlikdə ön cəbhədə döyüşlərə atılır. Füzuli rayonu istiqamətində düşmənin çoxlu sayda canlı qüvvəsini və 8 tankını məhv edirlər. Rayon ərazisində Üçtəpə adlanan yüksəklik Mahmudun komandiri olduğu bölük tərəfindən mənfur düşməndən azad edilir. Oktyabrın 29-da Füzuli rayonu Qaraxanbəyli kəndi uğrunda döyüşlər zamanı cəsur zabit düşmənin snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalır.

Şəhidin bacısı Arzu Nəcəfova deyir ki, evin tək oğlu olan Mahmud kiçik yaşlarından ağıllı, sakit və çalışqanlığı ilə seçilib: “Dərslərinə hər zaman məsuliyyətlə yanaşardı. Məqsədi ali məktəbə qəbul olmaq idi. Həmçinin boş vaxtlarında futbol oynamağı çox sevirdi. Mahmudgilin futbol oynadığı meydança evimizin qarşısındakı qəbiristanlığın yanındadır. İndi qardaşım həmin qəbiristanlıqda uyuyur...”.

Şəhidin komandiri olmuş kapitan Amil Mirzəyev Mahmudun onun bölüyündə taqıma rəhbərlik etdiyini bildirir: “Sonradan intizamına, savadına, yaxşı nailiyyətlərinə görə bölük komandiri vəzifəsinə təyin etdilər. Mahmud şəxsi heyətin qayğısına qalan, dayağında duran bir komandir idi. Döyüşlər başlayan ilk gündən yanımda oldu. Cəsarəti bütün şəxsi heyəti döyüşə ruhlandırırdı. Hər dəfə qabaqda gedirdi ki, şəxsi heyət çəkinmədən arxasınca gəlsin. Hər dəfə ehtiyatlı ol sözümə belə cavab verirdi: “Komandir, gör nə qədər qardaşımız şəhid olub, biz bunu etməsək, onların ruhu bizi bağışlamaz. Dayana bilmərik, ancaq irəli getməliyik”. Sonuncu döyüşdə də yenə birlikdə olduq. Düşmənin səngərinə girdik, bir neçə düşməni məhv etdik. Digər səngərdən düşmən Mahmudu vurdu. Yaralı olsa da, yanındakı xəsarət almış əsgərini qorumağa çalışırdı. O, əsl qəhrəman idi”.

Mahmud Məlikov oktyabrın 29-da doğulub boya-başa çatdığı Xolqaraqaşlı kəndində dəfn olunub.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Füzulinin azad olunmasına görə”, “Vətən uğrunda” və “İgidliyə görə” medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**NURƏDDİN**

# İslam irsimizi tanıyaq: Bibiheybət məscidi

Mədəniyyət Nazirliyinin “İslam irsimizi qoruyaq” layihəsi çərçivəsində təqdim olunan növbəti videomaterial Bakının Səbail rayonunda yerləşən Bibiheybət məscidi haqqındadır.




Bibiheybət məscidi dünyanın müxtəlif ölkələrindən gələn müsəlmanlar tərəfindən də dərin iman və sevgi ilə ziyarət olunur. Burada İmam Museyi-Kazımın (ə) övladlarından olan Xanım Həkimənin (ə) müqəddəs qəbri yerləşir.

Məscidi Şirvanşah II Fərruxzad inşa etdirib. Məscidin portalındakı kitabədə onun miladi tarixlə 1281-1282-ci illərdə Fərruxzad ibn II Axsitan ibn III Fərzburzun əmri ilə memar Mahmud ibn Səidin tikdiyi yazılıb.

Bibiheybət ziyarətgahı sovetlərin ilk illərində din əleyhinə kampaniyanın qurbanı olub, 1934-cü ildə tamamilə dağıdılıb. Bununla belə zəvvarlar buraya daima üz tutmaqda davam ediblər.

Ulu öndər Heydər Əliyev 1997-ci il iyulun 23-də – Məhəmməd Peyğəmbərin (s) mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoyub, bir il sonra, 1998-ci il iyulun 12-də məscidin açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin təşəbbüsü, eləcə də diqqət və qayğısı sayəsində Bibiheybət məscid-ziyarətgah kompleksinin genişləndirilməsi və yenidən qurulması işi davam etdirilib. Ziyarətgahın əsas korpusunun açılışından düz on il sonra – 2008-ci il iyul ayının 12-də əsaslı yenidənqurma və təmir işlərindən sonra məscidin bütöv bir kompleks olaraq açılış mərasimi olub.

Ziyarətgahda həmçinin ilk dəfə olaraq muzey yaradılaraq zəvvarların ixtiyarına verilib.

Videomaterialı bu linkə daxil olaraq izləmək mümkündür: bit.ly/3Anxz5F

# Maarifçilik ideallarının görkəmli təbliğatçısı

Dərin məzmunlu əsərləri ilə maarifçilik ideallarını təbliğ edən ədiblərimizdən biri də Nəcəf bəy Vəzirov olub. Görkəmli dramaturq M.F.Axundzadə ənənələrini davam etdirərək silsilə komediyalar yazıb, “Müsibəti-Fəxrəddin” əsəri ilə ədəbiyyatımızda faciə janrının əsasını qoyub. Maarifçi ədibin xatirəsini vəfatının 95-ci ildönümü ərəfəsində yad edirik.


Nəcəf bəy Vəzirov (soldan 3-cü) müəllim həmkarları ilə birlikdə

Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü ildə Şuşa şəhərində anadan olub. İbtidai məktəbi bitirdikdən sonra təhsilini Bakı şəhərində davam etdirir. İmkan düşdükcə teatra gedir. Bir müddət sonra izlədiyi tamaşaların, xüsusilə M.F.Axundzadənin komediyalarının təsiri ilə onda yaradıcılığa meyil oyanır. Gimnaziyanın son siniflərində oxuyarkən “Əti sənin, sümüyü mənim”, “Qaragünlü” adlı ilk pyeslərini qələmə alır.

Nəcəf bəy tərcümeyi-halında yazır: “1873-cü ildə altıncı sinifdə olduğum halda birinci dəfə rus teatrına getdim. Bu gecə mənə nəhayət dərəcədə əsər elədi. Teatrın nə olduğunu başa düşdüm. Sabahı günü gimnaziya müəllimi Həsən bəy Məlikov (Zərdabi) cənablarına müraciət edərək soruşdum ki, bizim dilimizdə teatr əsərləri, məzhəkə, faciə vardırmı? Həsən bəy Mirzə Fətəli Axundzadənin “Hacı Qara” komediyasını tapdı. Bu komediyanı pansionda olan müsəlman şagirdləri ilə bir yerdə oynamaq üçün hazırlamağa başladıq. Tamaşa günü çox adam var idi... Bizim bu teatrımız camaata nəhayət dərəcədə xoş gəlmişdi. Həman gecə müəllimimiz Həsən bəy Məlikov Mirzə Fətəli Axundzadənin təbrik teleqramını gətirdi. M.F.Axundzadə iki vərəqə minnətdarlıq kağızı yazmışdı. Axırda bunu əlavə etmişdi: “Bu gün “Hacı Qara”nı səhnədə göstərməklə mənim ömrümün üzərinə on il daha artırdınız”.

Orta təhsili uğurla başa vuran Nəcəf bəy Rusiyaya gedir. Sənədlərini Sankt-Peterburq Universitetinə verir. Şəhərin rütubətli havası onun səhhətinə pis təsir etdiyi üçün xəstələnir. Həkimlər ona Moskvaya köçməyi məsləhət görür. Bundan sonra Moskvada Petrovski-Razumovski Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasına daxil olur. Qəbul imtahanlarında yüksək qiymətlər aldığı üçün ona təqaüd də təyin olunur. Aldığı təqaüdlə o, teatr tamaşalarına gedir. Asudə vaxtlarında bədii əsərlər yazır. “Əkinçi” qəzetində məqalələrlə çıxış edir.

Dörd ildən sonra təhsilini başa vurur və vətənə dönür. Gəncə quberniyasının Dilican, Tərtər bölgələrində meşəbəyi işləyir. Eyni zamanda Bakıda çıxan “Həyat”, “İrşad”, “Tazə həyat”, “Açıq söz” və s. qəzetlərdə “Dərviş” imzası ilə felyetonlar yazır. Digər tərəfdən isə dram dərnəklərinə rəhbərlik edir, Azərbaycanda teatr sənətinin inkişafı, aktyor nəslinin yetişməsi üçün böyük səy göstərir. 1905-ci ildə birinci rus inqilabı başlayanda çar hökumətinin nəzərində siyasi cəhətdən o qədər də etibarlı olmayan Petrovski-Razumovski Akademiyasının məzunları da nəzarətə götürülür. Nəcəf bəy Vəzirov da əsassız olaraq işdən azad edilir. O, Bakıda bir daha imtahan verir və vəkil işləmək hüququ alır. Bundan sonra vəkillik fəaliyyəti ilə yanaşı, bədii yaradıcılıqla daha ardıcıl məşğul olur. “Yağışdan çıxdıq, yağmura düşdük”, “Pəhləvanani-zəmanə”, “Daldan atılan daş topuğa dəyər”, “Sonrakı peşmançılıq fayda verməz”, “Adı var, özü yox” pyeslərini yazır.

Ədibin dövrümüzə gəlib çatan ilk əsəri “Ev tərbiyəsinin bir şəkli” komediyasıdır. Bu əsərdə mülkədar ailələrindəki tərbiyə üsulu tənqid edilir. Komediyanın konflikti varlı, amma kobud, mədəniyyətsiz ata Bayraməli bəylə tənbəl və tərbiyəsiz oğulları Rəsul və Səfdərqulu arasındakı müasir həyat qaydalarına, məktəbə münasibətdən doğan ziddiyyətlər üzərində qurulub.

N.Vəzirovun yaradıcılığında “Müsibəti-Fəxrəddin” əsəri mühüm yer tutur. Müəllifin 1896-cı ildə yazdığı və Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoyduğu pyesin mövzusu iki mülkədar ailəsi arasında gedən qan davasından alınıb. Faciənin konflikti mürtəce köhnəliklə nisbətən zəif yenilik arasındakı mübarizədir. Birincilərin nümayəndəsi mühafizəkar mülkədar olan Rüstəm bəy, ikincilərin nümayəndəsi isə demokratik ruhlu mülkədar ziyalı Fəxrəddin bəydir. Rüstəm bəy yaşadığı ərazidə özündən böyük heç bir varlı şəxs görmək istəmir. Ona salam verməyən hər kəsi öldürür, evinə od vurub yandırır... İntiqam hissi Rüstəm bəyin gözünü tutur. Oğlu Mahmud bəyi də bu işə təhrik edir və sonda onun da ölümünə səbəb olur. Əsərin müsbət qəhrəmanı Fəxrəddin bəy gənc ziyalıdır. Xaricdə 5 il ali təhsil aldıqdan sonra böyük arzularla vətənə dönür... Qan davasına son qoymaq və Rüstəm bəylə barışmaq istəyir. Sonda o, maarifsizliyin gülləsinə tuş gəlir...

“Yağışdan çıxdıq, yağmura düşdük” (“Hacı Qəmbər”) komediyasının mövzusu isə tacir həyatından götürülüb. Komediyanın mənfi qəhrəmanı Hacı Qəmbərdir. O, xarici ölkələrlə ticarət edir. Daha çox varlanmaq sevdasına düşür. Sonda barama alverinə girişir. Lakin barama yüklənmiş gəminin dənizdə batması xəbərini eşidəndə havalanır. Ayaqyalın, başıaçıq küçələrdə dolaşır. Bir növ gülüş obyektinə çevrilir. Bir müddət sonra baramanın sığorta olunduğunu, pulunun qaytarılacağı xəbərini eşidir. Bundan sonra ağlı başına gəlir və sağalır...

N.Vəzirov yaradıcılığının ikinci dövrü “Ağa Kərim xan Ərdəbili” məzhəkəsi ilə başlayır. Müəllif əsəri yazarkən məşhur fransız dramaturqu Jan Batist Molyerin “Xəsis” komediyasından bəhrələnib. Ancaq o, əsərə milli ruh verməklə tipik bədii obrazlar yarada bilib. Buna görə də komediya dramaturgiyamızda diqqətəlayiq nümunələrdən hesab olunur. Ədib daha sonra “Vay şələküm-məələküm”, “Nə əkərsən, onu biçərsən” və “Keçmişdə qaçaqlar” əsərlərini yazır. Ədib eyni zamanda müxtəlif teatr truppalarında rejissorluq fəaliyyəti göstərib. Bəzən həvəskar aktyor kimi kiçik həcmli rollar da oynayıb...

1913-cü ildə N.Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyi münasibətilə Tağıyev teatrında təntənəli yubiley tədbiri keçirilir. “Nəcəf bəy Vəzirov” adlı ayrıca kitabça nəşr olunur. Ədəbi ictimaiyyətin ehtiramı N.Vəzirovun yaradıcılıq ilhamını, işləmək həvəsini daha da artırır.

1917-ci il oktyabrın 25-də Rusiyada çar hakimiyyətinin devrilməsi xəbərini böyük sevinclə qarşılayan ədib mətbuatda “Getsin, gəlməsin” adlı məqalə ilə çıxış edir. N.Vəzirov Azərbaycan Xalq Cümhuriyyəti zamanında pedaqoji fəaliyyətini daha da genişləndirir, maarifçiliyin inkişafına töhfələr verir.

Azərbaycanın sovetləşməsindən (1920) sonra N.Vəzirov Bakıda Kənd Təsərrüfatı Texnikumunda müəllim işləyir. Meşəçilik işi ilə bağlı tələbələri Azərbaycanın müxtəlif rayonlarına aparır. Təcrübə məşğələlərinə rəhbərlik edir. Unudulmaz yazıçı-dramaturq 9 iyul 1926-cı ildə tələbələri ilə birlikdə Şamaxıda, Çuxuryurdda olarkən ürəktutmasından vəfat edir, Bakıda dəfn olunur.

**Savalan FƏRƏCOV**

# İstiqlal savaşında Nəsib bəy Yusifbəyli yolu

## Elmi konfrans keçirilib

Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Azərbaycan “Türk Ocağı”nın təşkilatçılığı ilə “İstiqlal savaşında Nəsib bəy Yusifbəyli yolu” mövzusunda elmi konfrans keçirilib. Azərbaycanın və Türkiyənin ali təhsil müəssisələri alimlərinin iştirak etdikləri tədbir görkəmli dövlət və ictimai-siyasi xadim Nəsib bəy Yusifbəylinin (1881–1920) anadan olmasının 140 illiyinə həsr edilib.

Konfransın açılışında çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov ictimai-siyasi xadim Nəsib bəy Yusifbəylinin həyatını xalqına həsr edən şəxsiyyət olduğunu vurğulayıb, onun qısa ömür yaşamasına baxmayaraq, böyük xidmətlər göstərdiyini qeyd edib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə N.Yusifbəylinin fəaliyyətindən bəhs edən rektor onun hökumətdə vəzifə tutduğu dönəmlərdə xalqın maarifləndirilməsi, savadlanması yolunda xidmətlərinin danılmaz olduğunu vurğulayıb.

Azərbaycan “Türk Ocağı”nın başqanı, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı N.Yusifbəylinin Cümhuriyyətin başlıca simalarından biri olduğunu vurğulayıb, onun Baş nazir və maarif naziri kimi fəaliyyətindən danışıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı iki dövlətin qardaşlıq əlaqələrindən bəhs edib. O, iki qardaş ölkə arasındakı əlaqələrin yalnız elm, təhsil, mədəniyyət deyil, bütün sahələrdə inkişaf etdiyini deyib. Səfir Nəsib bəy Yusifbəylinin xüsusilə Xalq Cümhuriyyəti dövründə 100 tələbənin xaricdə təhsil alması üçün gördüyü işlərdən, maarif naziri kimi fəaliyyət göstərdiyi dönəmdəki yüksək fəaliyyətindən danışıb.



Türk Ocaqlarının rəhbəri, professor Mehmet Öz konfransa onlayn formatda qoşulub. O, Nəsib bəy Yusifbəylinin Türkiyədəki fəaliyyətini, xüsusilə gənclərin maariflənməsi, savadlanması yolunda göstərdiyi əvəzsiz xidmətləri vurğulayıb.

Milli Məclisin deputatı, fəlsəfə üzrə fəlsəfə doktoru Fazil Mustafa konfransın əhəmiyyətini diqqətə çatdırıb. Deputat, həmçinin “Difai” təşkilatının yaranmasında N.Yusifbəylinin rolunun, o cümlədən İsmayıl bəy Qaspıralı ilə olan münasibətlərinin araşdırılmasının vacibliyini qeyd edib.

Milli Məclisin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov da çıxışında Nəsib bəy Yusifbəylinin ictimai-siyasi fəaliyyətindən ətraflı söz açıb. Onun fəaliyyət göstərdiyi dövrdə Bakı Dövlət Universitetinin yaranması, yüzlərlə tələbənin xaricdə təhsil alması, həmçinin ana dili ilə bağlı bir sıra məsələlərin öz həllini tapdığını qeyd edib.

Türk Ocaqları İstanbul şöbəsinin müdiri Cezmi Bayram konfransa onlayn formatda qoşularaq, Nəsib bəy Yusifbəylinin faciəvi sonluqla nəticələnən həyatından bəhs edib, Cümhuriyyət dövründəki fəaliyyətini qeyd edərək, milli şüurun formalaşmasında əvəzsiz xidmətlərindən danışıb.

Konfrans işini panellərlə davam etdirib.

# 60-lardan günümüzə Azərbaycan hekayəsi

## Türkiyədə çapdan çıxıb

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda hazırlanan “60-lardan günümüzə Azərbaycan hekayəsi” kitabı Türkiyədə çapdan çıxıb.

İnstitutdan verilən məlumata görə, Ankarada “Bengü” nəşriyyat evində çap olunan kitabın redaktoru Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, çapa hazırlayanı institutun Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Lalə Qasımlıdır.

Xüsusi layihə çərçivəsində hazırlanan kitabda Azərbaycan ədəbiyyatının son 60 ilinə nəzər salınaraq, Ənvər Məmmədxanlı, İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, İsa Hüseynov, Sabir Əhmədli, Yusif Səmədoğlu, Anar, Elçin, Kamal Abdulla – ümumilikdə 18 yazıçının hekayələri təhlil olunub.

Kitabda hər bir yazıçı haqqında qısa məlumat verildikdən sonra onun hekayəsi təqdim edilir, sonra təhlilə keçilir. Hekayələrin əksəriyyəti bu layihə çərçivəsində türk dilinə tərcümə edilib. Layihədə Türkiyədən və Azərbaycandan professor, dosent və doktorantlar iştirak edib. Topluda Lalə Qasımlının “İsmayıl Şıxlı”dan mərdlik dərsi: “Namərd gülləsi” məqaləsi də yer alıb.

# Türk xalqlarının geyim mədəniyyətində keçənin rolu

## Beynəlxalq jurnalda məqalə

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) Etnoqrafiya elmi-fond şöbəsinin müdiri, dosent Gülzadə Abdulovanın “Türk xalqlarının geyim mədəniyyətində keçənin rolu” (The role of felt in apparel culture of Turkish people) mövzusunda məqaləsi impakt-faktorlu beynəlxalq jurnalda yer alıb.

Bu barədə muzeydən məlumat verilib.

Məqalədə qeyd olunub ki, türk xalqlarının aparıcı təsərrüfat sahələrindən birini qoyunçuluq və atçılıq təşkil etdiyinə görə, bu sahələrin yaranması və inkişafı, öz növbəsində, keçəçilik peşəsinin də geniş yayılmasına şərait yaradıb. Ona görə də keçəçiliyin tarixini köçmə maldarlıq formaları ilə əlaqələndirmək daha məqsədəuyğundur. Məqalədə keçə geyimlərinin etimologiyası, geyim tərzi haqqında da ətraflı məlumat verilib.

## Nizami sözündən incilər

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

# Zəhmətin axırında rahatlıq var, şadlıq var...




*Vəhşi ilə dost olsa insan dünyada,*
*Vəhşi adətincə ömr edər o da.*

**("Leyli və Məcnun")**

*Dünyada xoşbəxtdir yalnız o kəslər*
*Ki, öz çörəyini dostlarla yeyər.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Çalış, ayağına tikan batsa da,*
*Tənə bəhanəsi olmasın yada.*
*Bu deməsin: ömrün yetibdir başa,*
*O gülməsin: başın dəyibdir daşa.*

**("Yeddi gözəl")**

*Zəhmətdən fəryad etmə,*
*olsun qoy səndə qərar,*
*Zəhmətin axırında rahatlıq var, şadlıq var.*

**("Sirlər xəzinəsi")**

*Dünyada zülm etmək qoçaqlıq deyil,*
*Rəiyyət bəsləmək çox yaxşıdır, bil.*

**("Xosrov və Şirin")**

*Qan ilə islanmış zülmkar başdan,*
*Şübhə yox, yaxşıdır başsız bir insan.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# Sevənlər göz yaşlarına inanarlar...

## Görkəmli rejissor üçün vida sözü



Sizi bilmirəm, pandemiya xəbərlərini eşitdikcə COVİD-19 virusuna taclı virus yox, cəllad virus demək istəyirəm. Əslində, dünya tarixi boyunca ən qəddar cəlladlar elə taxt-tac sahiblərinin arasından çıxıb. Amma koronavirusdan fərqli olaraq, o taclılar elə ölüm hökmü verməklə kifayətləniblər, onu özləri (şəxsən) icra etməyiblər…

Belə kədərli bənzətmə qəfildən yaranmadı.

İyulun 5-də görkəmli kino rejissoru və aktyoru, Rusiyanın Xalq artisti, SSRİ və Rusiya Federasiyası Dövlət mükafatları laureatı, ABŞ Kino Akademiyasının "Oskar" mükafatı laureatı, professor Vladimir Menşov 82 yaşında koronavirus infeksiyasından dünyasını dəyişdi.

İndi deyən tapılar ki, maşallah, az ömür yaşamayıb… Düz. Yenə də münasibət bildirmək olar ki, mərhum bu yaşadək sənət baxımından nələri edə biləcəksə, edib. Bu yaşdan sonrası… Əslində bu yanaşma da doğru.

Azərbaycanın çörəyini yeyib ona arxa çevirməyən hər kəsi həm də səmimiyyətinə, düzgünlüyünə, vicdanını itirmədiyinə görə sevən, hörmətini saxlayan Azərbaycan tamaşaçısı isə daha çox ona heyfsilənəcək ki, təkcə neçə nəslin sevimli filmlərinin quruluşçu rejissoru, ssenari müəllifi və aktyoru yox, Azərbaycanı çox sevən, doğulduğu, uşaqlığı və ilk gənclik illəri keçən Bakını "mənim günəşli şəhərim" adlandıran böyük vicdan sahibini itirdik.

2014-cü ildə Bakıda "Mosfilm" həftəsinin açılışını Vladimir Menşovun "Məhəbbət və göyərçinlər"i etmişdi. Rejissor "Mosfilm" kinostudiyasını məhz Bakıda təmsil etməyin onun üçün böyük şərəf olduğunu vurğulamışdı: "Bakı mənə çox əzizdir. Burada doğulub boya-başa çatmışam. İndiki Neftçilər prospektində yaşamışam".

Sonuncu dəfə Bakıda iki il öncə, 2019-cu ilin aprelində olmuşdu. Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunun "MDB ölkələrində Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutu günləri. Dünyanın ilk kino məktəbinin 100 illiyi" layihəsinin iştirakçısı, dərs dediyi, qəyyumlar şurasının üzvü olduğu ali kino təhsili ocağının təmsilçisi kimi gəlmişdi. Nizami Kino Mərkəzində onunla keçirilən görüşdə isə iynə atsaydın, yerə düşməzdi. Kino zövqünün formalaşdığı yaşı Menşovun çəkdiyi məşhur filmlərin istehsal tarixinə təsadüf edənlər yox, gənclər də çox idi həmin görüşdə. Salondakı qələbəliyi görəndə etdiyi etiraf isə qonağın ziyarətinə gələnlərin ürəyincə olmuşdu: "Bakıya siz düşündüyünüz qədər gec-gec gəlmirəm. Bakı mənim doğma şəhərimdir, qohumlarım bu şəhərdə yaşayır. Gələndə onların evinə düşürəm deyə, xəbər tutan az olur". Boynumuza alaq, auditoriya, kütlə deyilən zümrə təvazökar, şəxsiyyətini qabartmayan məşhurları həmişə çox sevib, sevəcək də.

Məşhurluq deyəndə ki… Vladimir Menşovun quruluşçu rejissoru olduğu filmlərin sayı bir əli yumruq kimi bükməyə yetir. Təbii ki, bu sayın belə az olmasında kadrarxası çəkişmələr, bir çox sənət mübahisələrində rejissor Menşovun çox vaxt əsl Qafqaz kişisi kimi mərdanə davranışından xoşlanmayanların mənfi rəyi, acıq çıxmaq istəyi də az rol oynamayıb. Amma o, heç vaxt bunları dilinə gətirməyib, filmlərinin sayca azlığını belə dəyərləndirib: "Mən baxmaq istədiyim filmləri çəkmişəm". Həmin görüşün müqəddəməsində tanınmış kinoşünas Ayaz Salayev onu belə təqdim etmişdi:



"Əgər o, heç bir film çəkməsəydi, görkəmli aktyor kimi tarixdə qalacaqdı, əgər heç bir rol oynamasaydı, rejissor olaraq tarixdə qalacaqdı".

Bəli, çox təəssüf ki, Vladimir Menşov ömrünün həmin məqamı – sonu, tarixə qovuşmaq zamanı yetişdi.

İlk gəncliyində məhz aktyor, rejissor olmaq üçün bir neçə cəhddən sonra arzuladığı təhsil ocağına daxil olmuşdu.

Ssenarilərini təsdiq etdirincə, neçə qapı döymüşdü, kino məmurlarını çəkmək istədiyi filmlərin uğuruna inandırmaq üçün nə qədər söz döyüşünə çıxmışdı.

Şəraitsizlik, pulsuzluq üzündən cavan arvadı, körpə qızı ilə bir mənzildə yaşamaq uğrunda da çabalamışdı.

Və… bu mübarizələrdən həmişə qalib çıxmışdı, özünü aktyor, rejissor kimi təsdiqlətmək, nümunəvi sənət ailəsi qurmaq cəhdi onu uğura gətirib çıxarmışdı.

Nə acı ki, böyük insan cəmi iki həftənin içində amansız virusa təslim oldu; çünki bu savaşda ruhdan çox can çəkişməsi vacib idi.

Fani dünyanın həyat adlı "Oyun"u bu dəfə əbədi bitdi, "Bəxtəvər Kukuşkin". Amma "Məhəbbət və göyərçinlər" arasında bərabərlik işarəsi qoymağı bacaranlar "Moskva göz yaşlarına inanmır" desələr də, "Öz yerində olan" kolxoz sədri Semyon İvanoviç, "Nofelet hardadır?"dakı utancaq Pavel Qolikov kimi baş verənləri necə varsa, eləcə də qarşılayarlar. "Daşları toplamaq zamanı" sizin ömrünüzə bu sayaq gəldi, unuda bilməyəcəyimiz Vladimir Valentinoviç!

Uca Yaradan günahlarınızı bağışlasın, ruhunuzun əbədi məkanı behişt olsun!

Sizi sevən oxucularımızın adından hörmətlə

**Gülcahan MİRMƏMMƏD**

# "Təmrin"in növbəti xüsusi buraxılışı Mirzə Fətəliyə həsr olunub

Artıq ikinci ildir Milli Məclisin deputatı Cavanşir Feyziyevin dəstəyi ilə Azərbaycan Yazıçılar Birliyi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi və Türkiyənin "Təmrin" dərgisi "Azərbaycanın görkəmli şəxsiyyətləri" adlı birgə layihə həyata keçirir. Layihə çərçivəsində indiyədək "Təmrin"in Rəsul Rza, Mikayıl Müşfiq və Bəxtiyar Vahabzadəyə həsr olunmuş xüsusi nömrələri işıq üzü görüb.

Azərbaycanın görkəmli dramaturqu, maarifçisi Mirzə Fətəli Axundzadənin (1812–1878) vəfatının 143-cü ildönümü (12 iyul) ərəfəsində dərginin xüsusi nömrəsi çap olunub.

Xüsusi nömrə ümummilli lider Heydər Əliyevin sözləri ilə açılır: "Mirzə Fətəli Axundzadənin yaradıcılıq yolunu səciyyələndirən tarix səhifələrini vərəqləyərkən biz böyük iftixar hissi keçiririk ki, xalqımız ağır zamanlarda gerilik, dini fanatizm şəraitində belə görkəmli şəxsiyyət, öz dövrünü qabaqlayaraq gözəl əsərlər yaradan bir insan yetişdirmişdir".

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük ədibin 200 illiyi ilə bağlı sərəncamından fikirlər təqdim olunur: "Mirzə Fətəli Axundzadə bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açmışdır...".

Dərginin xüsusi nömrəsində Xalq yazıçısı Anar, Milli Məclisin deputatı Cavanşir Feyziyev, akademik İsa Həbibbəyli, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, professor Cavanşir Yusifli, ədəbiyyatşünaslar Şahbaz Şamıoğlu, Mətanət Vahid, Tural Adışirin və şair Səlim Babullaoğlunun məqalələri dərc edilib. Eyni zamanda görkəmli dramaturqun həyat və sənət barədə fikirləri, geniş bioqrafiyası, Şəki və Tbilisidəki ev-muzeylərindən fotolar, habelə Bakıda şairin adının əbədiləşdirildiyi abidə və yerlərin fotoları, M.F.Axundzadə ilə bağlı dünyanın və Azərbaycanın tanınmış insanlarının fikirləri yer alıb.

"Milli dünyagörüşümüzün inkişafında Mirzə Fətəli Axundzadənin rolu" (Şərqin Volteri – Mirzə Fətəli Axundzadə) yazısını




Cavanşir Feyziyev bu sözlərlə bitirir: "Azərbaycan mədəniyyət düşüncəsinin millliləşməsində, ictimailəşməsində, siyasiləşməsində, müasirləşməsində və demokratikləşməsində, dünyaya açıqlıq keyfiyyətləri qazanaraq universallaşmasında həlledici tarixi rol oynayan Mirzə Fətəli Axundzadə ilə, doğrudan da, tariximizin köhnə dövrü bitir, yeni zaman başlayır. Heç şübhə yoxdur ki, yeni zamanda Azərbaycanın müstəqilləşməsində, suveren demokratik respublika kimi dünya dövlətləri arasında özünəlayiq yer tutmasında Mirzə Fətəli Axundzadə ideyalarının xüsusi payı və həlledici əhəmiyyəti olub".

Xüsusi nömrəni nəşrə şair Səlim Babullaoğlu hazırlayıb. Dərginin naşiri Şərəf Yılmaz, layihənin koordinatoru Bəxtiyar Səlimov, mətnlərin türkcəyə tərcüməçisi Ömər Kiçikməhəmmədoğludur.

Dərgi Türkiyənin kitabxanalarına, habelə təhsil müəssisələrinə təqdim edilir. Bu, Mirzə Fətəlinin çağdaş Türkiyədə tanıdılmasına önəmli töhfədir.

# Milli Kitabxana Aşıq Ələsgər haqqında elektron məlumat bazası hazırlayıb

Bu il Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.

Mədəniyyət Nazirliyinin yubileylə bağlı tədbirlər planına uyğun olaraq, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Ustad sənətkar Aşıq Ələsgər" adlı elektron məlumat bazası hazırlanıb.

Elektron məlumat bazası "Rəsmi sənəd", "Həyat və yaradıcılığının əsas tarixləri", "Ələsgərəm, hər elmdən halıyam", "Görkəmli şəxsiyyətlər Aşıq Ələsgər haqqında", "Aşıq Ələsgərin söz xəzinəsindən incilər", "Aşıq Ələsgərin sözlərinə yazılmış musiqi əsərləri", "Əsərləri", "Haqqında", "Xatirəsinin əbədiləşdirilməsi", "Videoqalereya" bölmələrindən ibarətdir.

Elektron məlumat bazası ilə bu linkdə tanış olmaq olar: http://anl.az/el/emb/A.Elesger/index.html

## Xatirə təqvimi 7–9 iyul

### Azərbaycan

**7 iyul 1939** – Yazıçı, tədqiqatçı-alim, professor Elmira Nəzər qızı Zamanova (1939-2010) Göyçay şəhərində anadan olub. Rus və Azərbaycan dillərində elmi-fantastik əsərlərin müəllifidir: "Yeraltı dünya", "Vaxtdır, qardaşım" və s.

**7 iyul 1950** – Əməkdar mədəniyyət işçisi Həsən Nəsib oğlu Həsənov (1950 – 6.4.2021) Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olub. Müxtəlif teatrlarda (İrəvan, Mingəçevir teatrları, Dövlət Gənclər Teatrı) direktor işləyib.

**7 iyul 1961** – Əməkdar artist, aktyor, rejissor Ələkbər Adıgözəl oğlu Hüseynov (1961 – 2.8.2007) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru işləyib. Televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

**8 iyul 1888** – Xalq artisti Pyotr Pavloviç Jarikov (1888-1969) Moskvada anadan olub. Azərbaycan Dövlət Rus Dram Teatrında aktyor və rejissor kimi fəaliyyət (1928-1963) göstərib.

**8 iyul 1909** – Məşhur dilçi alim, akademik, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə (1909 – 10.4.1979) Şəkidə doğulub. Müasir Azərbaycan dilinin fonetikasına, etimologiyasına və ümumi dilçiliyə aid əsərlərin müəllifidir.

**8 iyul 1931** – Xalq artisti Zülfüqar Yaqub oğlu Baratzadə (1931 – 11.2.1991) Gəncədə doğulub. 1949-cu ildən Gəncə Dövlət Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**9 iyul 1835** – Görkəmli şair və maarifçi Seyid Əzim Şirvani (Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə; 1835 – 20.5.1888) Şamaxıda anadan olub. Azərbaycan lirik və satirik poeziyasını zənginləşdirib, "Əkinçi", "Ziya" qəzetlərində publisistik yazılar yazıb. Azərbaycan şairlərinin qısa tərcümeyi-halını və əsərlərindən nümunələri kitab ("Təzkirə") şəklində nəşr etdirib.

**9 iyul 1926** – Görkəmli yazıçı-dramaturq Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov (1854-1926) vəfat edib. Ədib "Müsibəti-Fəxrəddin" pyesi ilə Azərbaycan dramaturgiyasında faciə janrının əsasını qoyub.

**9 iyul 1939** – Əməkdar artist Firuz İmam oğlu Xudaverdiyev (1939-2017) Bakının Lökbatan qəsəbəsində doğulub. Mingəçevir teatrında, Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə çəkilib.

### Dünya

**7 iyul 1860** – Avstriya bəstəkarı Qustav Maler (Gustav Mahler; 1860-1911) anadan olub.

**7 iyul 1882** – Belarus ədəbiyyatının banilərindən şair Yanka Kupala (əsl adı İvan Dmitriyeviç Luseviç; 1882-1942) anadan olub.

**7 iyul 1884** – Yəhudi əsilli alman yazıçısı Lion Feyxtvanger (Lion Feuchtwanger; 1884-1958) anadan olub. "Qoyya", "İspan balladası", "Lautenzak qardaşları" və s. tarixi romanların müəllifidir.

**7 iyul 1901** – İtalyan aktyoru, kinorejissor, 4 dəfə "Oskar" mükafatı laureatı Vittorio De Sika (Vittorio De Sica; 1901-1974) anadan olub. Filmləri: "Günəbaxanlar", "Dünən, bu gün, sabah", "İtalyansayağı nikah" və s.

**8 iyul 1621** – Fransız şairi, məşhur təmsillər müəllifi Jan de Lafonten (Jean de La Fontaine; 1621-1695) anadan olub. Antik dövr müəlliflərinin (Ezop, Fedr və s.) əsərlərindən yararlanaraq təmsil janrını yaradıb.

**8 iyul 1892** – İngilis yazıçısı Riçard Oldinqton (Richard Aldington; 1892-1962) anadan olub. Əsərləri: "Qəhrəmanın ölümü", "Bütün insanlar düşməndir" və s.

**9 iyul 1764** – İngilis yazıçısı Anna Radklif (Ann Radcliffe; 1764-1823) anadan olub. Ədəbi effektlər, qorxulu situasiyalarla zəngin olan qotik romanın yaradıcılarından biridir. Əsərləri: "İtalyan və ya bir etirafın sirri", "Udolf qəsrinin sirləri" və s.

**9 iyul 1834** – Çex yazıçısı Yan Neruda (1834-1891) anadan olub. "Qəbiristanlıq çiçəkləri", "Kosmik nəğmələr" və s. kitabların müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

# Məşhur azərbaycanlı arxeoloq vəfat edib



Dünya şöhrətli azərbaycanlı arxeoloq Rauf Munçayev iyulun 4-də, ömrünün 93-cü ilində Moskvada vəfat edib. Bu barədə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutundan məlumat verilib.

Rauf Maqomedoviç Munçayev 1928-ci il sentyabrın 23-də Zaqatalada anadan olub. Uşaqlıq və yeniyetməlik illəri bu şəhərdə keçib, orta təhsili burada alıb. 1945-49-cu illərdə Dağıstan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsində, 1949-1953-cü illərdə Moskvada SSRİ EA Maddi Mədəniyyət İnstitutunun (indiki Arxeologiya İnstitutu) aspiranturasında arxeologiya ixtisası üzrə təhsil alıb. 1953-cü ildə tarix elmləri namizədi, 1971-ci ildə tarix elmləri doktoru dissertasiyalarını müdafiə edib.

60-cı illərdə R.Munçayev Əfqanıstan, Bolqarıstan, Hindistan və Monqolustanda arxeoloji qazıntılarda iştirak edib. 1969-cu ildən 2010-cu ilədək qədim Mesopotamiya abidələrini tədqiq edən sovet-Rusiya arxeoloji ekspedisiyasının rəhbəri olub. Bu ekspedisiya 1985-ci ilə qədər İraqda, 1988-2010-cu illərdə isə Suriyada e.ə. VIII-III minilliklərə aid abidələrdə arxeoloji qazıntılar aparıb. R.Munçayevin təşəbbüsü ilə onun Azərbaycandan olan yaxın dostu və həmkarı İdeal Nərimanov da bu ekspedisiyanın tərkibinə daxil edilib.

R.Munçayev elmi yaradıcılığında Azərbaycan abidələrinə tez-tez müraciət edib. Naxçıvan, Qarabağ, Gəncə-Qazax, Muğan, Quba-Xaçmaz bölgələrində yayılmış Neolit-tunc dövrü mədəniyyətləri R.Munçayevin əsərlərində dəfələrlə işıqlandırılıb. Böyük Sovet Ensiklopediyasında R.Munçayevin Azərbaycanın arxeoloji abidələri barədə məqalələri nəşr edilib. O illərdə R.Munçayev tez-tez Azərbaycana elmi ezamiyyətlərə gəlir, burada aparılmış arxeoloji qazıntıların nəticələri ilə yaxından maraqlanır və Azərbaycandan olan həmkarları ilə birgə elmi məqalələr nəşr etdirirdi.

R.Munçayev görkəmli alim olmaqla yanaşı, həm də çox bacarıqlı, yorulmaz elm təşkilatçısı idi. O, 1968-1991-ci illərdə SSRİ Elmlər Akademiyasının Arxeologiya İnstitutu direktorunun elmi işlər üzrə müavini vəzifəsində çalışıb. 1991-1994-cü illərdə Rusiya EA-nın Arxeologiya İnstitutunun direktoru vəzifəsini icra edib, 1994-2003-cü illərdə isə institutun direktoru olub.

Məşhur arxeoloq məhsuldar elmi fəaliyyətinə görə Rusiya Federasiyasının "Dostluq" ordeni (1998), "Şərəf" ordeni (2009) ilə təltif edilib. 1982-ci ildə Dağıstan Respublikasının, 1989-cu ildə Rusiya Federasiyasının, 2008-ci ildə İnquşetiya Respublikasının "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülüb, 2013-cü ildə isə Çeçenistan Respublikası Elmlər Akademiyasının fəxri akademiki seçilib. Qədim Mesopotamiyanın tədqiqində göstərdiyi xüsusi xidmətlərə görə 1999-cu ildə Rusiya Federasiyasının elm və texnika üzrə Dövlət mükafatına layiq görülüb. R.Munçayev 1995-ci ildən Almaniya Arxeologiya İnstitutunun, 1990-cı ildən İtaliyanın Afrika və Şərq İnstitutunun müxbir üzvü olub.

Allah rəhmət eləsin.

# İstanbulda Əbdürrəhim bəy Haqverdiyevin əsəri səhnələşdirilib

İstanbulda fəaliyyət göstərən Türkiyə-Azərbaycan "Vizyon" teatrı yeni tamaşasını təqdim edib. Azərbaycan ədəbiyyatının klassiki Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesi əsasında hazırlanan tamaşa İstanbulun Maltəpə rayonundakı Türkan Saylan Mədəniyyət Mərkəzinin salonunda nümayiş etdirilib.





Səhnə əsəri Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyi münasibətilə hazırlanıb. Bu barədə teatrın koordinator-meneceri Elşad Haqverdi məlumat verib.

Yeni tamaşanın teatrın fəaliyyətinin beşinci ilində ərsəyə gəldiyini diqqətə çatdıran Elşad Haqverdi qeyd edib ki, İstanbulda Türkiyə-Azərbaycan "Vizyon" teatrını yaradanda Qarabağ kimi ağrımız var idi və biz həm də dərdimizi tanıtmaq məqsədilə bu yola çıxdıq: "Düşündük ki, bu yolda teatr ən yaxşı təsir vasitələrindən biridir".

"Vizyon" teatrı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru Elçin İmanov və Kəmalə Kamal tərəfindən qurulub. Kollektivin hazırladığı ilk tamaşa Firuz Mustafanın "Maneken" əsəri olub. Daha sonra Xocalı soyqırımından bəhs edən "Adsız qadın" ("Cəhənnəmdə 8 gün", soyqırımının dəhşətlərini yaşamış Dürdanə Ağayevanın xatirələri əsasında) tamaşası hazırlanıb.

Teatrın yeni səhnə əsərinin rejissoru sənətşünaslıq doktoru Mine Bayrakeri, ümumi koordinatoru Elçin İmanov, quruluşçu rəssamı Tariyel Əlizadə, musiqi tərtibatçısı Arda Dobrucalı, geyim rəssamı Lətafət Rafiqqızı, xoreoqrafı Rafiz Mehdizadədir.

Layihə barədə danışan Elşad Haqverdi deyib: "Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən bizə Əbdürrəhim bəy Haqverdiyevin Türkiyə türkcəsinə tərcümə olunmuş "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərinin ssenarisi göndərildi. Pandemiya səbəbindən teatrlarımızın Ə.Haqverdiyevin 150 illiyini qeyd edə bilməməsini də nəzərə alaraq, bu tamaşaya hazırlaşdıq və teatrsevərlərə təqdim etdik. Tamaşa çox müsbət qarşılandı".

Tamaşadan sonra Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı yaradıcı heyətə təşkilatın təşəkkürnamələrini təqdim edib.

"Kollektivimiz bu tamaşanı Azərbaycanda da təqdim etməyi səbirsizliklə gözləyir. Ən böyük arzumuz isə mədəniyyətimizin beşiyi olan Şuşada bu tamaşamızla çıxış etməkdir", – deyə Elşad Haqverdi bildirib.

"Vizyon" teatrı yay tətilindən sonra Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tamaşa hazırlamağı da planlaşdırır.

# Vindzor atçılıq şousunda "Xarıbülbül" kompozisiyası

## Qarabağ atları ilə budəfəki proqram Vətən müharibəsində Zəfərə həsr olunub






Böyük Britaniyanın paytaxtı Londonda keçirilən ənənəvi "Vindzor Kral Atçılıq Şousu"nda ("Royal Windsor Horse Show") Azərbaycan heyəti yenə möhtəşəm çıxışı ilə yadda qalıb.

İyulun 1-dən 4-dək davam edən, Kraliça II Elizabetin və kral ailəsinin digər üzvlərinin tamaşa etdikləri tədbirlərdə "Xarıbülbül" adlı xüsusi şou-kompozisiya təqdim olunub.

Vətən müharibəsində əldə olunmuş möhtəşəm Zəfərə və şəhidlərimizin müqəddəs xatirəsinə həsr olunmuş bu kompozisiyada Dövlət Sərhəd Xidmətinin süvarilər qrupunun Qarabağ atları üzərində nümayiş etdirdikləri cəsur hərəkətlər, Azərbaycanın milli geyimində arenaya çıxan "Sərhədçi" rəqs ansamblının möhtəşəm çıxışları, süvarilərin başları üzərində Azərbaycan və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırması, Azərbaycan milli rəqsi ilə atsürmə elementlərinin sintezi böyük rəğbətlə qarşılanıb.

Məşhur "Xudayar təsnifi"nin, Tofiq Quliyevin "Qaytağı"sının, Polad Bülbüloğlunun "Eşq və ölüm" baletinin müsiqisinin sədaları altında təmsilçilərimizin çıxışları Azərbaycanın, o cümlədən də işğaldan azad olunmuş Qarabağın və ətraf rayonların böyük ekranlarda nümayiş etdirilən füsunkar görüntüləri ilə müşayiət olunub.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış proqramda xalqımızın zəngin mədəniyyəti, qəhrəmanlığı, cəsarəti və qorxmazlığı Qarabağ atlarının bənzərsiz gözəlliyi, milli musiqimizin və rəqslərimizin dili ilə ifadə olunub.

"Xarıbülbül" şou kompozisiyasını xüsusi maraqla izləmiş Kraliça II Elizabet nümayəndə heyəti ilə görüşüb, xatirə şəkli çəkdirib, Azərbaycan təmsilçilərinin çıxışını möhtəşəm adlandırıb, onların gələcək atçılıq tədbirlərinə də qatılacağına ümidvar olduğunu vurğulayıb.

Azərbaycanın qədimliyini, özünəməxsus gözəlliyini və Qarabağın əsarətdən azad olmasını tərənnüm edən Qarabağ atlarının Böyük Britaniya atçılığının ən mötəbər tədbirinin əsas hissəsi kimi təqdim edilməsi izləyicilər tərəfindən heyranlıqla qarşılanıb. Bu tədbir eyni zamanda Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında mədəni əlaqələrin inkişafına töhfədir.

# "Qarabağla bağlı reallıqları sərgilər vasitəsilə dünyaya çatdıracağam"

## Fransada məşhur fotoqraf Rza Diqqətinin silsilə sərgiləri



əvvəli səh. 1-də

"Bu sərgi Fransada ən möhtəşəm sərgilərdəndir. İldə bir dəfə təşkil olunur və iki ay davam edir. Burada dünyanın 22 ölkəsindən tanınmış incəsənət nümayəndəsinin əsərləri sərgilənir. İlk dəfədir ki, bu sərgidə fotolar nümayiş olunur. Bir neçə ildir Pyer Boncovanni məni bu sərgiyə dəvət edir. Builki sərgiyə dəvəti qəbul etdim. Bu sərgi çərçivəsində fotolarım əsasında iki sərgi düzəldilib", – deyə məşhur fotoqraf-jurnalist AZƏRTAC-a müsahibəsində bildirib.

Böyük zalda "Rezanın müasir Odisseyası" (l'Odyssee contemporaine de Reza) adlı sərgi nümayiş olunur. Burada fotoqrafın geniş formatda Azərbaycanla bağlı 6 fotosu yer alıb.

Hər birinə xüsusi mətn tərtib edilmiş Qarabağla bağlı fotolar digər zalda "Sükutun ümmanı" (Epaisseur du silence) adı altında nümayiş edilir. Şuşadan, Ağdamdan, digər azad olunmuş ərazilərimizdə erməni işğalı dövründə viranə qoyulmuş şəhərlərdən olan fotoları sərginin kuratoru Pyer Boncovanni özü seçib və onların tarixçəsi ilə bağlı yazılı mətnlər hazırlayıb.

"Qarabağla bağlı reallıqları belə sərgilər vasitəsilə dünyaya çatdıracağam. Ötən il oktyabr ayından beynəlxalq səviyyədə planlaşdırılmış layihələrimi ləğv etdim və Qarabağa getdim. Fransanın bir neçə şəhərində təşkil edilmiş builki sərgiləri ləğv etmədim" deyən fotoqraf bildirib ki, Fransada olacağı 12 gün ərzində ümumilikdə 4 sərgisi və 3 konfransı nəzərdə tutulub.

"Bu tədbirlər zamanı məndən harada olduğumu, son aylar görünmədiyimi soruşurlar. Onda Qarabağdan danışır, orada olduğumu deyir və fotolarımı göstərirəm", – deyə R.Diqqəti əlavə edib.

Fotoqraf vurğulayıb ki, Qarabağın şəhər və kəndlərində törədilən vandalizm aktlarını, yaşayış məntəqələrinin viranə qoyulduğunu göstərməyə təzə başlayıb. Yenidən Azərbaycana qayıdacağını və bu ilin sonunadək orada olacağını deyən fotoqraf Qarabağı qarış-qarış gəzəcəyini, hər addımı fotolarında əbədiləşdirəcəyini diqqətə çatdırıb: "Azərbaycanda işlərimi qurtarandan sonra Qarabağa həsr edilmiş böyük fotokitab, xüsusi sərgi və konfrans təşkil edəcəyəm. Qarabağ həqiqətlərini əks etdirən fotolarımı, onlardan hazırladığım kitabı dünyanın böyük şəhərlərində də sərgiləyəcəyəm".



Pontuaz şəhərində "Baxış Festivalı" (Festival du regard) çərçivəsində məşhur fotoqrafın sərgisi və onun iştirakı ilə konfrans təşkil olunub. Konfransda Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev, Pontuaz şəhərinin rəhbərliyi, sakinləri iştirak ediblər.

Fotoqraf Qarabağda çəkdiyi fotoları təqdim edərək, hər fotonun tarixçəsi haqqında məlumat verib. Bildirib ki, İkinci Qarabağ müharibəsi zamanı Fransadan Ermənistana 80 jurnalist, Azərbaycana isə yalnız 2 jurnalist göndərilib. Belə bir ədalətsizlik qarşısında ölkəmizə gələrək, baş verən hadisələri fotonun yaddaşına köçürməyə qərar verib.

Birinci Qarabağ müharibəsi və Xocalı soyqırımı haqqında məlumat verən R.Diqqəti çəkdiyi şəkilləri göstərib. Soyqırımı qurbanı olmuş ərinin və oğlunun cəsədini eyni vaxtda görən qadının haray çəkdiyi anı, eləcə də cılız, üzündə övlad itkisinin əzabları ifadə olunan, əlində itkin düşən oğlunun şəklini tutaraq xəbər gözləyən yaşlı atanın şəkilləri fotoqrafın məşhur fotoları arasında diqqəti xüsusilə cəlb edib.

Fotoqraf İkinci Qarabağ müharibəsində erməni silahlı qüvvələrinin mülki əhalini qadağan olunmuş bombalarla hədəfə almasından, yaşlılarla bərabər, məsum körpələri qanına qəltan etməsindən söz açıb. Erməni mərmisinin qurbanı olmuş 7 yaşlı qızcığazın şəklini təqdim edərkən, onun atasının sözlərini xatırladaraq özü də qəhərlənib, konfrans iştirakçılarını da qəhərləndirib.

Təqdim olunan fotolardan birində Azərbaycandakı tolerantlıq və multikulturalizm mühiti, udi kilsəsi icmasının azərbaycanlılara iftar süfrəsi açması əks olunub. Bu foto da konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.




Konfrans zalının qarşısında "Günahsızların kütləvi qırğını" (Le massacre des innocents) adlı fotoalbomun satışı təşkil olunub.

Fotoqrafın seçmə şəkillərindən ibarət sərgi insanların sıx olduğu dəmiryol vağzalının həyətində təşkil edilib.

# Macar bəstəkarın musiqisi "Dədə Qorqud" orkestrinin ifasında

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Bela Bartokla bağlı tədbir keçirib

Xəbər verdiyimiz kimi, iyulun 2-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda məşhur macar bəstəkarı Bela Bartokun (1881–1945) 140 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.




"Bela Bartok İli" çərçivəsində təşkil edilən tədbirdə rəsmilər, fonda üzv ölkələrin səfirləri, diplomatik korpusun digər nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Fondun prezidenti Günay Əfəndiyeva çıxış edərək bildirib ki, Bela Bartokun həyat və yaradıcılıq yolu cəsarət və nəciblik nümunəsidir. Onun yaratdığı əsərlər XX əsr musiqi mədəniyyətinin ən yüksək nailiyyətlərindən hesab olunur.

"Bela Bartok böyük bəstəkar və pianoçu olmaqla yanaşı, həm də xalq yaradıcılığını dərindən bilən musiqi etnoqrafı idi. O, Şərqi Avropa və türk ölkələrinin folklorunun Avropada ən tanınmış araşdırmaçılarından biri olub. Macar və türk xalq musiqisinin yaxınlığını duyaraq onları tədqiq və müqayisə edib, bir-biri ilə genetik əlaqəsini sübut edib", – deyə G.Əfəndiyeva bildirib.



Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi tədbirin əhəmiyyətindən söz açaraq deyib: "Macarıstan artıq iki ildir Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda müşahidəçi statusuna malikdir və biz bu sahədə Türk dünyası ilə əməkdaşlığımızı dərinləşdiririk. Ortaq tarixi və mədəni mənşəyimizə görə türkdilli xalqları dost və qardaş hesab edirik".

Səfir diqqətə çatdırıb ki, Bela Bartok Budapeştdə türk dilini öyrənib, həmçinin İstanbuldakı türk xalq ifaçılarından toplanan xalq musiqisi səsyazmaları kolleksiyasını dinləyib.

Tədbirdə fondun himayəsində yaradılan "Dədə Qorqud" kamera orkestrinin ifasında bəstəkarın "Rumın xalq rəqsləri" və "Divertisment" əsərlərindən ibarət konsert proqramı təqdim edilib.

Qeyd edək ki, "Dədə Qorqud" kamera orkestri Türk dünyasının mədəniyyət və incəsənətini, xalq yaradıcılığını, dahi bəstəkarlarının əsərlərini beynəlxalq aləmdə tanıtmaq məqsədilə yaradılıb. Orkestrin bədii rəhbəri və dirijoru Xalq artisti, professor Yalçın Adıgözəlovdur.

# "Lazgi"ni sentyabrda gözləyin

Sentyabrın 4-də UNESCO-nun patronajlığı altında Ə.Nəvai adına Özbəkistan Dövlət Akademik Böyük Teatrında "Lazgi" balet tamaşasının premyerası göstəriləcək.

2019-cu il dekabrın 12-də UNESCO-nun Hökumətlərarası Komitəsi "Lazgi – Xarəzm rəqsi"ni Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edib. Xarəzm torpağında yaranmış "Lazgi" rəqsi təbiətdəki səs və təzahürləri, sevgi və xoşbəxtlik hisslərinin hərəkətlərdə təcəssümüdür. Hazırda "Lazgi" Özbəkistanın bütün regionlarında populyardır.

Bu rəqsə həsr olunmuş balet tamaşası Özbəkistan rəqs ənənələrini beynəlxalq mədəni mühitdə yaymağa kömək edə bilər. Bu məqsədlə də ölkənin qeyri-maddi irsini tanıtmaq və özbək baletini məşhurlaşdırmaq üçün Avropada qastrol turnesi planlaşdırılır. Tamaşa həm də səhnələşdirildiyi teatrın daimi repertuarına daxil ediləcək.

Tamaşanın xoreoqrafı Berlin Milli Operası yanındakı balet məktəbinin məzunu Raul Raymondo Rebekdir. Tanınmış xoreoqraflarla işləmiş, dünyanı dolaşmış quruluşlarda çıxış etmiş Rebek 2012-ci ildən Dortmund Baletinin ştatlı xoreoqrafı, 2014-cü ildən isə "NRW Juniorballet Dortmund" kollektivinin rəhbəridir. Rebekin Cənubi Koreyanın "Universal Ballet" truppası üçün qurduğu "Bəyaz röya" birpərdəli tamaşası ötən il Astanada Avrasiya müasir rəqs festivalında maraqla qarşılandıqdan sonra "Lazgi" balet tamaşasının quruluşu ona etibar edilib.

**GÜLCAHAN**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1223
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.